2000
№31 26 aprel 2023

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan etibarlı tərəfdaş kimi addımları davam etdirməyə hazırdır




Enerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün addımları davam etdirməyə birmənalı olaraq hazırdır. Biz fəal enerji diplomatiyamızı davam etdiririk. Avrasiyanın enerji xəritəsini yenidən cızırıq.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri aprelin 25-də Bolqarıstanın paytaxtı Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində bildirib.

Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Prezident İlham Əliyev qeyd edib ki, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra biz hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışırıq. Azərbaycanda ilk külək və günəş enerjisi stansiyalarının tikintisi artıq başlayıb.

davamı səh. 2-də

# Azərbaycan kinosu – 125: reallıq, çağırışlar və hədəflər

### Forumda milli kinematoqrafiyanın aktual məsələləri müzakirə olundu




Xəbər verdiyimiz kimi, 20-21 aprel tarixlərində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində Bakıda "Azərbaycan kinosu – 125: reallıq, çağırışlar və hədəflər" mövzusunda forum keçirildi.

Aprelin 20-də forumun açılışından öncə kino xadimləri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdi, önünə əklil və gül dəstələri qoydular.

Sonra Heydər Əliyev Mərkəzində forumun açılış mərasimi keçirildi. Tədbirdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin kollektivi, ölkəmizin tanınmış kino xadimləri, media mənsubları, müxtəlif ölkələrdən dəvət olunmuş qonaqlar iştirak edirdi.

Açılış nitqi söyləyən mədəniyyət naziri Adil Kərimli iştirakçıları salamladı və ümidvar olduğunu bildirdi ki, forum maraqlı müzakirələrlə yadda qalacaq və kinomuzun inkişaf yoluna işıq salacaq: "Bu gün burada yığışmağımızın əsas məqsədi hazırda Azərbaycan kino sənətinin üzləşdiyi problemləri, eyni zamanda perspektivləri müzakirə etmək, onların həll yollarını taparaq bunun əsasında yeni inkişaf istiqamətlərini müəyyən etməkdir".

Bir neçə gün öncə (11-12 aprel – red.) bu məkanda Teatr Forumunun keçirildiyini xatırladan nazir qeyd etdi ki, "Heydər Əliyev İli" çərçivəsində mədəniyyətimizin digər sahələri ilə də bağlı forumlar keçiriləcək. Bu tədbirlərdə mütəxəssislərin irəli sürdüyü təkliflər təhlil olunaraq Mədəniyyət Nazirliyi tərəfindən hazırlanan Azərbaycan mədəniyyətinin 2040-cı ilədək inkişafı ilə bağlı strategiyada nəzərə alınacaq.

Vurğulandı ki, dünya kinosunun yaranma tarixindən çox da geri qalmayan Azərbaycan kinosu 1898-ci ildə ilk addımlarını atmağa başlayıb, 125 illik zəngin yol keçərək xalqımıza böyük bir miras buraxıb. 1923-cü ildə ilk kino fabrikinin – bu il 100 yaşı tamam olan Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının əsasının qoyulması kino sənətimizin sistemli şəkildə inkişafı üçün geniş zəmin yaradıb. Kinematoqrafçılar tərəfindən yaradılan çoxsaylı ekran əsərləri onilliklər boyu soydaşlarımızda milli-mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət və sədaqət hisslərinin aşılanmasına xidmət edərək xalqımızın dünyagörüşünün formalaşmasına öz töhfəsini verib.

davamı səh. 3-də

## Milli Muğam Müsabiqəsi keçirilir




Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Konservatoriyasının (AMK) dəstəyi ilə Milli Muğam Müsabiqəsi keçirilir.

Aprelin 24-25-də AMK-da müsabiqənin ilk turu üzrə dinləmələr olub. İkinci tur aprelin 26-da təşkil olunacaq. Müsabiqənin yekun konserti isə aprelin 30-da keçiriləcək.

Milli Muğam Müsabiqəsi xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə təşkil olunub.

Hər iki kateqoriya üzrə münsiflər heyətinin sədri AMK-nın rektoru Xalq artisti Siyavuş Kərimidir. İnstrumental ifaçılıq üzrə münsiflər heyətində Xalq artistləri Fəxrəddin Dadaşov, Möhlət Müslümov, Əməkdar artistlər Şirzad Fətəliyev və Çinarə Heydərova, xanəndəlik üzrə münsiflər heyətində isə Xalq artistləri Səkinə İsmayılova, Mənsum İbrahimov, Zabit Nəbizadə, Əməkdar artist Qəzənfər Abbasov yer alıblar.

Seçim turuna 41-i xanəndə, 18-i instrumental ifaçı olmaqla ümumilikdə 59 nəfər qatılıb. Onlardan xanəndə ixtisası üzrə 20 nəfər, instrumental ifaçılıq üzrə isə 18 nəfər müsabiqənin I turunda iştirak hüququ qazanıb.

davamı səh. 2-də

## Diqqət! Azərbaycan ərazisinə daxil olursunuz!




Xəbər verildiyi kimi, aprelin 23-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) bölmələri tərəfindən Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.

DSX-nin yaydığı məlumatda bildirilir ki, bu addım 2020-ci il 10 noyabr tarixli Üçtərəfli bəyanata (44 günlük müharibənin başa çatması ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya liderlərinin birgə bəyanatı – red.) zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat daşınmasının qarşısının alınması məqsədilə, həmçinin Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə, Laçın-Xankəndi yolunun girişində nəzarət-buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq atılıb. Bu barədə Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin komandanlıqlarına məlumat verilib.

davamı səh. 2-də

## Çində "Azərbaycan mədəniyyətinə pəncərə"



Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondunun dəstəyi ilə Çin Xalq Respublikasında (ÇXR) Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər keçirilir. Bu münasibətlə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti Çinə səfər edib.

Səfəri çərçivəsində ÇXR Kommunist Partiyasının Benbu şəhər komitəsinin katibi Xuan Siaovu və Tayhu Dünya Mədəniyyət Forumunun (Taihu World Cultural Forum) rəhbəri Cen Çuansin ilə görüş keçirilib.

Xuan Siaovu Azərbaycanın Benbu şəhərinin "Qədim məskənlər" mədəniyyət parkına dəstək göstərən ilk ölkələrdən olduğunu vurğulayaraq Heydər Əliyev Fondu tərəfindən parkda yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı milli pavilyonun qurulmasına görə təşəkkür edib.

davamı səh. 8-də

## "Arşın mal alan" operettası ilk dəfə Torontoda təqdim olunub




Kanadanın Toronto şəhərində yerləşən "Meridian Arts Center" mərkəzindəki Qrinvin teatrında Azərbaycan bəstəkarlıq məktəbinin və milli operasının banisi Üzeyir Hacıbəylinin məşhur "Arşın mal alan" operettası ilk dəfə təqdim olunub.

Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Təbriz" musiqi və rəqs ansamblının təşkilatçılığı ilə ərsəyə gələn konsert-tamaşanın premyerasına Azərbaycan icmasını və müxtəlif millətləri təmsil edən 300-dən çox izləyici qatılıb.

davamı səh. 8-də

## 2000-ci görüş



Mədəniyyət həm də yoldur. Çünki konkret hədəfi var: insanı aydınlığa, işığa doğru aparır. Müstəqil Azərbaycanın yaşıdı olan "Mədəniyyət" qəzeti də 32 ildir yol gəlir. Mədəniyyət Nazirliyinin təsis etdiyi qəzetin mətbu yolu 1991-ci ilin 2 yanvar tarixindən başlayıb. Bu illər ərzində mədəniyyət çətiri altında bu sahənin müxtəlif istiqamətləri – teatr, musiqi, kino, rəssamlıq, heykəltəraşlıq, xalq yaradıcılığı və tətbiqi sənətlər, eləcə də mədəni irs, tarix və ədəbiyyatımız, folklor, aşıq yaradıcılığı, habelə muzey, kitabxana işi və s. üzrə yeniliklərə işıq salmağa çalışıb. Dünya mədəniyyətinin mühüm olaylarını, Azərbaycanın beynəlxalq mədəni əlaqələri, mədəniyyətlərarası dialoq, mədəni müxtəliflik kimi məsələləri də diqqətdən kənar qoymayıb.

Qəzetimiz ötən illərdə müxtəlif formatlarda, ağ-qara və ya qismən rəngli şəkildə, fərqli dövriliklə nəşr olunub. 2018-ci ilin oktyabrından hazırkı formatda (B2 format, 8 səhifə, tam rəngli) həftədə iki dəfə oxucuların görüşünə gəlir. Bu, oxucularımızla 2000-ci görüşümüzdür.

davamı səh. 7-də

## Paytaxtdan bölgələrə sənət sovqatı

"Heydər Əliyev İli" və Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi münasibətilə paytaxtda fəaliyyət göstərən bir sıra teatrların və musiqi kollektivlərinin bölgələrə yeni qastrol səfərləri olub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan layihənin məqsədi regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının daha mənalı keçirilməsi, yerli yaradıcı kollektivlərlə sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.

Layihə çərçivəsində Azərbaycan Dövlət Mahnı Teatrının estrada ansamblı aprelin 22-də Şamaxı Mədəniyyət Mərkəzində konsert proqramı ilə çıxış edib.

Arslan Növrəslinin caz qrupu isə aprelin 22-də Xaçmaz rayonundakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzində etno-caz konsertini təqdim edib.

Hər iki konsert musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

davamı səh. 4-də

### Uşaq İncəsənət Festivalının ilk mərhələsi davam edir



səh. 4

### Türk dünyası rəssamları Daşkənddə festivalda bir araya gəliblər

səh. 8



### "Qarabağnamə" Heydər Əliyev Mərkəzinin səhnəsində

səh. 5

№31 26 aprel 2023
www.medeniyyet.az

# İsraillə əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək

Siyasi dialoqumuzun yüksək səviyyəsi iqtisadiyyat, energetika, yüksək texnologiyalar, təhsil, hərbi-texniki və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin genişləndirilməsi və yeni məzmunla zənginləşməsi üçün əlverişli şərait yaradır. Azərbaycanın İsraildə ticarət və turizm nümayəndəliklərinin açılmasının, bu il isə səfirliyinin fəaliyyətə başlamasının dövlətlərarası münasibətlərimizin daha da inkişafına vüsət verəcəyinə əminəm.

Bu fikirlər Prezident İlham Əliyevin İsrail Dövlətinin müstəqilliyinin 75-ci ildönümü münasibətilə Prezident İsxak Hersoqa ünvanlandığı təbrik məktubunda vurğulanır.

Məktubda qeyd olunur ki, ötən dövr ərzində İsrail bütün sahələrdə mühüm nailiyyətlər qazanıb və dünyanın ən inkişaf etmiş ölkələri sırasında yer alıb. Azərbaycan-İsrail əlaqələrinin daim yüksələn xətlə inkişaf edərək bugünkü səviyyəyə çatması məmnunluq doğurur. Bunun təməlində xalqlarımızı birləşdirən çoxəsrlik möhkəm dostluq və qarşılıqlı rəğbət hissləri dayanır.

"İnanıram ki, xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq Azərbaycan-İsrail dostluğu və əməkdaşlığının böyük potensialından daha dolğun istifadə etmək üçün qarşılıqlı səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik", – deyə məktubda bildirilir.

# Akademik Zərifə Əliyeva haqqında elektron resurs

Azərbaycan xalqına mənsub elə qadın simalar var ki, onlar heç vaxt unudulmur, xatirələri həmişə yad edilir və əziz tutulur. Belə qadın şəxsiyyətlərdən biri də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevadır.




Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan elektron resurs (https://zarifaaliyeva.preslib.az/) istifadəçilərin ixtiyarına verilib.

Elektron resursda Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti geniş şəkildə istifadəçilərə təqdim edilir. Resursda materiallar 8 bölmədə qruplaşdırılıb.

"Bioqrafiya" bölməsində Zərifə xanım Əliyeva və onun ailə üzvləri barədə qısa məlumat verilib, həmçinin Zərifə xanımın elmi və ictimai sahədə fəaliyyətinin mühüm məqamları öz əksini tapıb.

"Xronologiya" bölməsində isə bir alim kimi onun keçdiyi həyat yolu, oftalmologiya sahəsində əldə etdiyi uğurlar təqdim olunub.

"Xatirəsinin əbədiləşdirilməsi" bölməsində ölkə daxilində və xaricdə Zərifə xanım Əliyevanın xatirəsinə ucaldılan abidələr, adının verildiyi təsisatlar, parklar, küçələr haqqında məlumatlar əksini tapıb.

Elektron resursda həmçinin "E-Kitablar", "E-Məqalələr", "Biblioqrafiya", "Rəsmi sənədlər" və "Fotoqalereya" bölmələri yer alıb. Elektron resursun materialları müntəzəm olaraq yenilənir.

# Çingiz Aytmatovun "Ana tarla"sı tamaşaya qoyulub




Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı, Bakı Bələdiyyə Teatrının iştirakı ilə "Heydər Əliyev İli" çərçivəsində Türk dünyasının böyük yazıçısı Çingiz Aytmatovun "Ana tarla" povestinin motivləri əsasında tamaşa hazırlanıb. Ədibin 95 illiyi münasibətilə ərsəyə gələn tamaşanın premyerası aprelin 26-da olacaq. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur.

Fond tərəfindən bu səhnə əsərinin premyerasının təşkili Ulu öndər Heydər Əliyevin türk dövlətlərinin ədəbi şəxsiyyətlərinə, onların yaradıcılıqlarına verdiyi önəmə, müasiri olduğu yazıçılarla, o cümlədən qırğız xalqının böyük ədibi Çingiz Aytmatovla doğma münasibətinə ithaf edilib.

Layihə həmçinin təşkilatın qurucu üzv ölkələri olan Azərbaycan və Qırğızıstanın mədəni əlaqələrinin gücləndirilməsinə töhfə vermək məqsədi daşıyır.

Qeyd edək ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü ilə 2018-ci ildə Azərbaycanda Çingiz Aytmatovun 90 illik yubileyi qeyd olunmuş, ədibin "Cəmilə" povesti əsasında qırğız sənətçilər tərəfindən hazırlanmış tamaşa nümayiş etdirilmişdi.

# ICESCO mədəni müxtəliflikdə diplomatiyanın təşviqini dəstəkləyir

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) aprelin 24-də qeyd edilən "Sülh naminə Beynəlxalq Multilateralizm və Diplomatiya Günü" münasibətilə bəyanat yayıb.

Bəyanatda ICESCO-nun bütün dünyada sülhün əldə edilməsi, təhlükəsiz və firavan cəmiyyətlərdə yaşamağa töhfə vermək üçün birgəyaşayış dəyərlərini möhkəmləndirmək və mədəni müxtəlifliyi qəbul etmək məqsədilə çoxtərəfli diplomatiyanın təşviqinə sadiqliyi bir daha təsdiq olunub: "Bu kontekstdə təşkilatımız beynəlxalq tərəfdaşları ilə təhsil, elm, texnologiya, mədəniyyət, sivilizasiyalararası dialoq, gənclərin inkişafı və qadınların ixtisası sahələrində ictimai birliyin və həmrəylik dəyərlərinin gücləndirilməsinə töhfə vermək üçün digər beynəlxalq qurumlarla birgə fəaliyyət və əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu vurğulayır. Biz müxtəlif ölkələrlə konstruktiv və maddi tərəfdaşlıq yolu ilə cəmiyyətlərin inkişafına səy göstəririk".

Bəyanatda vurğulanır ki, ICESCO tərəfindən qarşılıqlı hörmət, dialoq və birgəyaşayış dəyərlərinin təşviqi üzrə öz missiyasına və gələcəyə baxışına nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatının prinsip və razılaşmalarına uyğun olan praktik təşəbbüslər, proqramlar, layihələr irəli sürülüb və həyata keçirilir. Təşkilat həmçinin mədəni müxtəlifliyi cəmiyyətin birliyinə nail olmaq üçün stimula çevirmək məqsədilə diplomatiyanı təşviq edir.

Multilateralizm son illər beynəlxalq müstəvidə aktuallıq qazanan termindir. Hər bir ölkəyə bütün tərəfdaşlarla münasibətlərdə imtiyaz imkanı verən beynəlxalq iqtisadi əlaqələr sistemini ehtiva edir.

# Azərbaycan etibarlı tərəfdaş kimi addımları davam etdirməyə hazırdır

*əvvəli səh. 1-də*

"Həmrəylik halqası" şəbəkəsi ilə bağlı imzalanma mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev iştirak ediblər.

Memorandumu Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman imzalayıblar.

Mərasimdə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciəti dinlənilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku, Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman çıxış ediblər.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirməyə və birlikdə bütün hədəflərə nail olmağa hazırdır. Dövlət başçısı bildirib ki, Azərbaycan müstəqilliyinin bərpasından üç ildən az bir müddət içində sonralar "Əsrin müqaviləsi" adlandırılacaq müqaviləni imzaladı və ilk dəfə xarici neft şirkətlərini Xəzər dənizində işləməyə, neft istehsal etməyə və kəşflərə dəvət etdi. Biz bu gün XXI əsrin layihəsini həyata keçiririk və bu layihə böyüyür. Ona görə də enerji sahəsində etibarlı tərəfdaş olan Azərbaycan əminliklə bizim bu yolumuzu davam etdirməyə və bütün hədəflərə nail olmağa hazırdır.

Prezident qeyd edib ki, Azərbaycan hazırda yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar aparır.




Əminik ki, Slovakiya "Həmrəylik halqası"nın üzvü kimi yaxın vaxtlarda enerji sahəsində tərəfdaşımıza çevriləcək.

Dövlət başçısı Azərbaycanın qaz təchizatının coğrafiyasını ən azı 10 ölkəyə qədər genişləndirəcəyini bildirib: "Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq".

Bu uğur – Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında anlaşma memorandumunun imzalanması əhəmiyyətli dərəcədə Bolqarıstanla Azərbaycan arasında etibarlı, uzunmüddətli strateji əməkdaşlıqla əlaqədardır.

Bunu isə Bolqarıstan Prezidenti Rumen Radev deyib. Tədbirdə xüsusi qonaq qismində iştirak etməklə bağlı təklifini qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Rumen Radev ölkələrimiz arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib. Bildirib ki, son bir ildə bu əməkdaşlıq çox uğurla inkişaf edib və hazırda artıq yeni müstəvidədir.

"Daha bir mühüm məqam ondan ibarətdir ki, bu təşəbbüs bizim ambisiyalarımızın səviyyəsini artırır. İndi biz artıq digər daha mühüm layihələr barədə danışmağa başlamışıq. Biz gələcəyin enerjisi – yaşıl hidrogenin nəqli barədə danışmağa başlamalıyıq", – deyə Bolqarıstan Prezidenti əlavə edib.

Rumen Radev SOCAR-ın Sofiyada yeni ofisinin fəaliyyətə başlamasının əhəmiyyətini də qeyd edib: "Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyasını təsdiqləyib. İnanıram ki, biz gələcəkdə uğur qazanacağıq. Çünki geosiyasi vəziyyət, ilk növbədə, birlikdə olmağı və ən yaxşı həllər axtarmağı tələb edir".

Qeyd edək ki, aprelin 25-də Azərbaycan və Bolqarıstan prezidentləri Sofiyada SOCAR-ın ofisinin açılışını ediblər.

# Milli Muğam Müsabiqəsi keçirilir

## Seçim turuna instrumental ifaçılıq və xanəndəlik üzrə 59 nəfər qatılıb

*əvvəli səh. 1-də*

Müsabiqənin ilk günündə, aprelin 24-də 9-u instrumental ifaçılıq, 10-u xanəndəlik üzrə olmaqla 19 iştirakçının çıxışı dinlənilib.

Aprelin 25-də birinci turun daha 18 iştirakçısı səhnəyə çıxıb.

Əvvəlcə instrumental ifaçılıq üzrə dinləmələr keçirilib. Bu kateqoriya üzrə 8 ifaçı – Bayraməli Əliyev, Çingiz Əliyev, Samir Əsədli, Aişə Əmrahova, Hüseynağa Səmədov, Soltan Nadirov, Vaqif Təhməzov və Solmaz Rəhimova öz ifasını təqdim ediblər. İfaçılara ümumilikdə 2 saat yarım vaxt ayrılıb.

Sonra xanəndəlik kateqoriyası üzrə dinləmələr olub. Elnarə Bəykişiyeva, Rəqsanə Əsədova, Şamo Nəbiyev, Zümrüd Məmmədova, Əfsanə Qurbanova, Lalə Hüseynova, Mirəli Sarızadə, İsmayıl Talıbxanzadə, Rauf Cəfərov və Nurlan Səfərovun ifaları dinlənilib. Ümumilikdə ifaçılara 3 saat vaxt ayrılıb.

Aprelin 26-da ikinci turda xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə qaliblər seçiləcək.

Hər iki kateqoriya üzrə 1, 2 və 3-cü yerlərin qaliblərinə müvafiq olaraq 7 000, 5 000 və 3 000 manat mükafat nəzərdə tutulub.

Milli Muğam Müsabiqəsinin qalibləri – xanəndə və instrumental ifa üzrə birinci yeri tutan iştirakçılar ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcək.

Münsiflər heyətinin üzvü Xalq artisti Möhlət Müslümov müsabiqənin keçirilməsini yüksək dəyərləndirdi: "Uzun müddət idi ki, instrumental ifaçılıq üzrə müsabiqə təşkil olunmurdu. İlk seçim turunda yeni ifaçılar kəşf etdik.




Deyərdim ki, bu gün bu müsabiqə analoqu olmayan bir layihə oldu. Həm də ona görə sevindim ki, bu gün mən tələbələrimin tələbələrini qiymətləndirirdim. Vaxtilə tarzənlər Elçin Həşimov və Ələkbər Ələkbərovu tələbəm kimi müsabiqələrə hazırlaşdırmışam, bu gün isə artıq onların yetirmələri qarşımızda çıxış edirdi. İştirakçıların hər biri istedadlıdır və yüksək qiymətə layiqdirlər. Bugünkü çıxışlardan və müsabiqənin təşkilindən böyük zövq aldım".

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları təşkil olunur. Bu layihələr milli sərvətimiz olan muğamı dünya mədəniyyəti kontekstində bir daha nümayiş etdirmək və yaşatmaq məqsədi daşıyır.

**Lalə Azəri**

# Münxendə Azərbaycan musiqisi təqdim olunub

Azərbaycanın Almaniyadakı Səfirliyi tərəfindən Münxen şəhərindəki Sənətkarlar Evində (Münchener Künstlerhaus) konsert təşkil olunub.

Tədbirdə Bavariya Landtaqının (əyalət parlamenti) deputatları, əyalətin hökumət qurumlarının təmsilçiləri, Münxendə akkreditə olunmuş konsullar, media nümayəndələri, mədəniyyət xadimləri, eləcə də Bavariyada yaşayan Azərbaycan, türk, yəhudi və digər icmaların təmsilçiləri iştirak ediblər.

Tədbirin başlanğıcında səfirlik tərəfindən hazırlanmış "Azərbaycanda alman irsi" adlı qısa film nümayiş olunub.

Səfir Nəsimi Ağayev çıxışında ölkələrimizin münasibətlərinin qədim tarixə malik olduğunu, Azərbaycanda ilk alman məskənlərinin təxminən 200 il əvvəl salındığını, o zamandan etibarən almanlar və azərbaycanlılar arasında dostluq münasibətlərinin təşəkkül tapdığını qeyd edib.

Bavariya Landtaqının CSU (Xristian Sosialistlər İttifaqı) fraksiyasının sədr müavini Aleksandr Köniq son dövrlər Azərbaycanın Avropa, o cümlədən Almaniya üçün enerji təchizatçısı kimi rolunun artdığını vurğulayıb. O, əməkdaşlığın bundan sonra yüksələn xətlə inkişaf edəcəyinə əminliyini bildirib.



Çıxışlardan sonra Almaniyada yaşayan və fəaliyyət göstərən gənc azərbaycanlı musiqiçilər – pianoçu Nərmin Nəcəfli və opera müğənnisi Mərziyyə Hüseynova Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış ediblər. Onların ifasında Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Asəf Zeynallı, Vaqif Mustafazadə, Niyazi və Adil Bəbirovun, eləcə də avropalı bəstəkarlar Frederik Şopen, Robert Şuman və Şarl Qunonun əsərləri tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

# Diqqət! Azərbaycan ərazisinə daxil olursunuz!

*əvvəli səh. 1-də*

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) də məsələ ilə bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycan Hökuməti, Ermənistan tərəfinin Laçın-Xankəndi yolundan 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanata zidd şəkildə sistemli və genişmiqyaslı qanunsuz məqsədlər üçün sui-istifadənin davam etdiyini və bundan qaynaqlanan təhlükəsizlik hədələrini nəzərə alaraq, Azərbaycan və Ermənistan arasında sərhəddə yolun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirib.

Üçtərəfli bəyanatın imzalanmasından keçən iki il yarım müddət ərzində Azərbaycan tərəfi davamlı şəkildə Laçın yolunun Ermənistan tərəfindən genişmiqyaslı sui-istifadə hallarına diqqəti cəlb edib. Bu cür sui-istifadə hallarına Azərbaycan ərazisində qalmaqda davam edən erməni silahlı qüvvələrinin şəxsi heyətinin rotasiyası, silah və sursatın daşınması, terrorçuların keçidi, habelə təbii sərvətlərin və mədəni mülkiyyətin qanunsuz daşınmasını misal göstərmək olar.

Yoldan minaların daşınaraq sonradan Azərbaycan Respublikasının suveren ərazilərində basdırılması xüsusilə ağır fəsadlar doğurur. Müharibənin sonundan etibarən 294 nəfər azərbaycanlı mina qurbanı olub.

"Üçtərəfli bəyanat üzrə öhdəliklərə uyğun olaraq, Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq. Azərbaycan tərəfi, Ermənistanla birgə sərhəddə nəzarət-sərhəd rejiminin şəffaf və təhlükəsiz fəaliyyəti naminə əməkdaşlığa hazır olduğunu bildirir", – deyə XİN-in məlumatında vurğulanır.



Qeyd edək ki, DSX bölmələri tərəfindən Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsi elektrik enerjisi ilə təmin olunub. Yolun girişində "Diqqət! Azərbaycan ərazisinə daxil olursunuz!" sözləri yazılmış lövhə də qurulub.

əvvəli səh. 1-də

# Azərbaycan kinosu – 125: reallıq, çağırışlar və hədəflər

## Forumda milli kinematoqrafiyanın aktual məsələləri müzakirə olundu

### Kino sahəsi həmişə dövlətin diqqət mərkəzində olub

Ulu öndər Heydər Əliyevin kino sahəsinin inkişafına diqqət və qayğısından danışan Adil Kərimli bildirdi ki, mədəniyyətin digər sahələri kimi milli kinomuzun inkişafı da onun daim diqqət mərkəzində olub. "Kino bizim xalqımızın salnaməsidir", – deyən Ulu öndər istər sovetlər dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi vaxtlarda bu sahəyə qayğı göstərib. Sovetlər birliyi dağıldıqdan sonra, digər sahələrdə olduğu kimi, kinoda da durğunluq yarandığı bir vaxtda Ulu öndərin qayğısı nəticəsində Azərbaycan kinosu yenidən inkişaf yoluna qədəm qoydu. Ümummilli liderin rəhbərliyi ilə kino fəaliyyətinin normativ-hüquqi bazasının formalaşdırılmasına başlanıldı. 1993-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Dövlət Film Fondu təsis edildi.

Azərbaycan Kinosu Gününün təsis edilməsi Heydər Əliyevin bu sahədə tarixi xidmətidir. Uzun illər sovet kinosu günü Azərbaycanda milli kino günü kimi qeyd edilib. Azərbaycan kinosunun tarixi isə 1916-cı ildən hesab olunurdu. Prezident Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan kinosunun yaranmasının başlanğıcı kimi 1898-ci ilin 2 avqust tarixi qəbul olundu.

Nazir qeyd etdi ki, bu gün də milli ideologiyamızın, tariximizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində mühüm rol oynayan Azərbaycan kino sənətinə dövlət tərəfindən, şəxsən Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı göstərilir. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı", ölkə başçısının "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 1 mart 2019-cu il tarixli sərəncamı milli kino sənətinə yüksək diqqət və qayğının bariz nümunəsidir. Bundan əlavə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında kino sənətinin də inkişaf etdirilməsi konsepsiyası öz əksini tapıb. Ölkə rəhbərliyi tərəfindən atılan bu addımlar gələcəkdə kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, yerli istehsal və yayım infrastrukturunun müasirləşdirilməsinə öz töhfəsini verəcək.






Nazir onu da diqqətə çatdırdı ki, mədəniyyətimizin inkişafında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində müxtəlif illərdə Azərbaycanın kinosu bir sıra beynəlxalq festivallarda, eləcə də Kann kinofestivalında təbliğ edilib.

### "Kino Agentliyi bu sahədə yeni mərhələnin başlanğıcıdır"

Adil Kərimli ölkəmizdə kinematoqrafiya sahəsində şəffaf idarəçilik mexanizmlərinin tətbiqi məqsədilə yaradılan Kino Agentliyini bu sənətin inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirdi. Bildirdi ki, Mədəniyyət Nazirliyi tərəfindən aidiyyəti qurumlarla birgə Agentliyin fəaliyyəti üçün bütün lazımi işlər tamamlanıb. Agentlik Azərbaycan kino sənayesinin bir çox beynəlxalq birgə layihələrdə, o cümlədən "Evroimaj" kimi nüfuzlu platformalarda müştərək film istehsalında iştirakına, milli kinematoqrafiyanın yeni təcrübələr qazanmasına, eləcə də audiovizual sahənin iqtisadi fəallığının artırılmasına imkan yaradacaq: "Lakin onu da vurğulamaq lazımdır ki, Azərbaycan kino sənətinin bir sıra problemləri mövcuddur. Forumun da əsas məqsədi kino salnaməmizin zəngin ənənələrini qoruyub saxlamaqla yanaşı, bu mirasın daşıyıcıları olaraq hazırda Azərbaycan kino sənətinin üzləşdiyi problemləri aydınlaşdırmaq, gələcək illərdə də inkişafını təmin etməkdir. Əminik ki, burada əyləşən audiovizual sahənin dəyərli nümayəndələri bu sahənin kadr hazırlığından başlayaraq bütün istiqamətlərinin araşdırılıb inkişaf etdirilməsində bizə dəstək olacaqlar".

Nazir vurğuladı ki, kino sahəsində yaranmış yeni münasibətlər, yeni çağırışlar, özəl sektorun fəaliyyətinin təşviq edilməsi, dövlətdən asılılığın azaldılması və dünya kino sənayesində mövcud olan təmayüllərə müvafiq köklü dəyişikliklərin edilməsinə böyük zərurət var: "Əminik ki, sizlər artıq bu dəyişikliklərin və çağırışların tərkib hissəsi kimi öz fəaliyyətinizi uğurla qurmusunuz. Sadəcə olaraq, bir araya gələrək vahid bir komanda kimi bu prosesi sürətləndirmək və daha da təkmilləşdirməyə ehtiyac var. Bu baxımdan, kinoforum sadalanan məqsədlərə çatmaqda böyük bir başlanğıc nöqtəsi, əsas ictimai dialoq formatıdır. İki gündə sizlərdən mövcud olan problemlər və onların həlli mexanizmləri istiqamətində daha sistemli, konstruktiv fikir və təkliflər gözləyirik".

Nazir çıxışının sonunda kinoforumun işinə uğurlar arzuladı, bütün iştirakçılara və tədbirin təşkilində zəhməti keçən hər kəsə təşəkkürünü bildirdi.

***

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Şəfiqə Məmmədova "Heydər Əliyev və Azərbaycan kinosu" mövzusunda çıxış etdi.

2023-cü ilin kinomuz üçün əlamətdar olduğunu deyən Şəfiqə Məmmədova forumun Ulu öndərin yubileyinə həsr olunmasından məmnunluğunu dilə gətirdi: "Ulu öndər Heydər Əliyevin kinonun inkişafında müstəsna xidmətləri var. Kino tariximizin uğurlu layihələri məhz Heydər Əliyevin adı ilə bağlıdır. Filmlərimizin SSRİ Dövlət mükafatına layiq görülməsində, həm Azərbaycan, həm də Moskvadakı fəaliyyəti zamanı sənət üçün xidmətləri əvəzedilməzdir. Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışından sonra milli kinomuzun həyatında ciddi dönüş yaranmağa başladı. Bu ənənə bu gün də Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir.

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Xalq artisti Rasim Balayev kino sahəsində mütəxəssislərin yetişdirilməsi, rejissor və ssenarist nəslinin təhsilinə diqqətdən söz açdı. O, ümumbəşəri mövzularda da filmlərin çəkilməsinin vacibliyini vurğuladı. Xalq artisti "Azərbaycanfilm" kinostudiyasına dövlət tərəfindən dəstək göstərilməsinin, uzun illər kinoya istedadlı, yaradıcı gənclərin gəlməsində, tanınmasında mühüm rol oynamış "Debüt" studiyasının fəaliyyətinin bərpasının vacibliyini diqqətə çatdırdı.

Xalq artisti, rejissor Oqtay Mirqasımov kino sahəsində universal və əbədi dəyərlərin qorunmasının əhəmiyyətini qeyd etdi. Kinoteatrlarda nümayiş olunan filmlərin milli xüsusiyyətlərə uyğunsuzluğundan danışan rejissor milli dəyərlərə cavab verməyən filmlərin nümayişinin ciddi narahatlıq doğurduğunu bildirdi.

Çıxışlardan sonra Azərbaycan kino tarixini əks etdirən videoçarx nümayiş olundu.

Açılış mərasimindən sonra Kino Forumu işini panel iclaslarla davam etdirdi.

**Lalə**

## Milli kino: dünən, bu gün və sabah

Aprelin 20-də Kino Forumunun "İdeologiya. Milli kino: dünən, bu gün və sabah" adlı ilk panelində "Mədəniyyət siyasətində kinonun rolu", "Milli kinoda mövzu seçimi. Cəmiyyətin gözləntisi və dövlət sifarişi" və "Kino sahəsində peşəkar kadr hazırlığının mexanizmləri" mövzuları ətrafında çıxışlar dinlənildi.

Teleaparıcı Vüsalə Məmmədovanın moderatorluğu ilə keçirilən paneldə kinorejissor, Xalq artisti Vaqif Mustafayev mədəniyyət siyasətində kinonun rolu və mövzu seçimi ətrafında fikirlərini bölüşdü.

Kinorejissor, Əməkdar incəsənət xadimi Rafiq Quliyev keçmişlə müqayisədə film sənayesinin ideologiyadan nisbətən uzaqlaşdığını, lakin kino ilə tamaşaçı arasında ünsiyyətin zəiflədiyini dilə gətirdi. Kinonun sosial sifarişdən çox, dövriyyəyə hesablanmasının narahatlıq doğurduğunu qeyd etdi.

Kinorejissor, kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev hər bir xalqın özünəməxsus kino dilinin olması, milli kinomuzun öz simasının formalaşmasının vacibliyini vurğuladı. Dedi ki, bu gün vətənpərvərlik, Qarabağ Zəfəri, qəhrəmanlıq mövzulu film və seriallara ehtiyac var.

Yaradıcı insanların, kino ictimaiyyətinin bir arada olmasından məmnunluqla danışan kinorejissor, aktyor, Əməkdar incəsənət xadimi Elxan Cəfərov bu formatda müzakirəni kinomuzun sabahı naminə




əhəmiyyətli addım kimi dəyərləndirdi. Qeyd etdi ki, bu sahədə çoxlu problemlər var və onlardan da ən əsası ixtisaslı kadrların azlığıdır. Bu da öz növbəsində filmlərin texniki və yaradıcılıq baxımından keyfiyyətinə mənfi təsir göstərir.

Ssenarist, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu hazırda kinematoqrafiyanın əsas etibarilə bazarla, tələbatla səsləşməli olduğunu dedi, bu sahənin idarəçilik və təşkilatçılıq baxımından yeni tendensiyalara açıq olmasının vacibliyini vurğuladı.

Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq məsələləri üzrə katibi, dramaturq, ssenarist İlqar Fəhmi kinodramaturgiya, filmlərimizin mövzu dairəsi, ssenaristlərin film istehsalatında yeri və mövqeyinin müəyyənləşməsi, ideoloji kontekstdə kinonun təsir gücünün nəzərə alınmalı olduğunu dedi.

Kinorejissor Teymur Hacıyev isə kinematoqrafiyanın qlobal dünya ilə rabitə üçün mühüm vasitə olduğunu bildirdi.

**Həmidə Nizamiqızı**

## Yaradıcılıq: müasir kinomuzun perspektivləri

Forumun ilk gününün ikinci paneli "Yaradıcılıq: müasir Azərbaycan kinosunun perspektivləri" mövzusuna həsr olunmuşdu.

Telejurnalist, Amerika Televiziya Sənətləri və Elmləri Akademiyasının üzvü Kamran Qasımovun moderatorluq etdiyi paneldə "Müəllif kinosunda uğur meyarları", "Kinofestivallar və kinofondlar – müştərək istehsal üçün zəruri platforma" və "Satış potensialı olan filmlər üçün dəstək sistemi" mövzuları üzrə müzakirələr aparıldı.

Kinorejissorlar, Əməkdar incəsənət xadimləri – Cəmil Quliyev, Yavər Rzayev, Azərbaycan Kinematoqrafçılar İttifaqının nəzdində fəaliyyət göstərən Beynəlxalq Kino Məktəbinin rəhbəri Oleq Səfərəliyev, kinorejissor, ssenarist Asif Rüstəmov, təsvir rejissoru Orxan Abbasov və gənc rejissor Türkan Hüseynova çıxış etdilər.

Cəmil Quliyev müəllif filmlərinin rolundan söz açdı. Dedi ki, bu gün Azərbaycanda festivallara görə müəllif kinosu adına xələl gətirirlər, festivalın mövzusuna görə filmlər çəkilir. Film ürəklə, vətəndaş mövqeyi ilə çəkilməlidir: "Biz müəllif kinosunu inkişaf etdirməliyik. Bu olmasa, nə kinomuz inkişaf edəcək, nə də kino tariximizi yaza biləcəyik. Kinoda gənclərə dəstək vermək lazımdır. Müəllif kinosu gənclərin çəkdiyi ilk filmlərdən başlayır. "Debüt" studiyası canlanmalıdır".

Yavər Rzayev diqqətə çatdırdı ki, kinonun tarixi müəllif kinosu ilə yazılıb. Ona görə ki, musiqi, ədəbiyyat, təsviri sənət, aktyor bunların hamısını rejissor bir araya gətirir. Rejissorun əsas məqsədi isə kinoda öz dilini tapmaq olmalıdır.

Oleq Səfərəliyev diqqətə çatdırdı ki, sovet dönəmində 70 ildə SSRİ-də 7250 film çəkilib və 15 milyon tamaşaçı yığan film uğurlu film hesab olunurdu. O siyahıda 6 Azərbaycan filmi var: "Bu gün ölkəmizdə az filmlər çəkilir. Müqayisə üçün deyim ki, ötən il Qazaxıstanda 50 film çəkilib. Nəticələrə görə, prokatda milli filmlərin həcmi 40 faizə çatıb. Ən vacib məsələ tamaşaçını zallara qaytarmaqdır. Bundan əlavə, kinodramaturgiya ilə bağlı dərsliklər Azərbaycan dilinə tərcümə edilməlidir".

Orxan Abbasov kino sahəsində sistemləşmə, maliyyə fondlarının axtarış yolları və dünya təcrübəsi haqqında düşüncələrini bölüşdü.




Asif Rüstəmov beynəlxalq film festivallarına Azərbaycan filmlərinin qəbulu və hazırda kino sahəsində çalışan gənc rejissorlara münasibətə fikir bildirdi. Dedi ki, film yaxşıdırsa, heç nə ona maneə ola bilməz. Təbii ki, konyunktura və klişelərlə film çəkəndə iş daha rahat olur. Lakin uğur üçün bu, şərt deyil.

Türkan Hüseynova da "Debüt" studiyasının yenidən fəaliyyətinin bərpası məsələsinə toxundu. Bildirdi ki, studiyalar nə qədər çox olarsa, müəllif filmləri də bir o qədər bu studiyalardan yol alıb inkişaf edəcək.

Çıxışlardan sonra auditoriyanın sualları cavablandırıldı, fikir mübadiləsi aparıldı.

**L.Azəri**

## Kinonun maliyyələşdirilməsi mexanizmləri




Kino Forumunun ikinci gününün ilk paneli "Biznes. Kino və digər audiovizual əsərlərin maliyyələşməsinin prinsip və mexanizmləri" mövzusuna həsr olunmuşdu.

Aktyor Azər Aydəmirin moderatorluq etdiyi paneldə "Kino sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi zamanı nələr nəzərə alınmalıdır?", "Tamaşaçının yerli filmlərə marağının artırılması necə tənzimlənməli?", "Azərbaycanfilm" kinostudiyasının 100 illik tarixi və gələcək perspektivləri" sualları ətrafında müzakirələr aparıldı.

Azərbaycan Professional Kinorejissorlar Gildiyasının sədri Əməkdar incəsənət xadimi Hüseyn Mehdiyev kino haqqında qanunun təkmilləşdirilməsinin vacibliyini vurğuladı. Diqqətə çatdırdı ki, kinonun istehsalı sahibkarlıq fəaliyyəti ilə yaradıcılığın sintezidir: "Bizim həm kinoya, həm maliyyəyə münasibətimiz dəyişməlidir. Tenderlər də kino sənayesinə maneə törədir. Bu kimi maneələr aradan qaldırılmalıdır".

"Azərbaycanfilm" kinostudiyasının direktoru Əməkdar mədəniyyət işçisi Nazim Hüseynov beş il ərzində dövlət büdcəsindən ayrılan maliyyənin hansı istiqamət və layihələrə xərclənməsindən bəhs etdi. Bildirdi ki, əksər dövlət studiyaları bağlanıb. Hazırda iki dövlət studiyası fəaliyyət göstərir – "Salnamə" və "Azərbaycanfilm".

Bakı Media Mərkəzinin icraçı direktoru Əməkdar mədəniyyət işçisi Orman Əliyev özəl və prodüser kinosunun yaradılmasının vacibliyini qeyd etdi.

"CinemaPlus" kinoteatrlar şəbəkəsi Müşahidə şurasının sədri Zaur Darabzadə Azərbaycan filmlərinin müəyyən müddətə ƏDV-dən azad olunması təklifini səsləndirdi. Bildirdi ki, bəzi qonşu ölkələrdə belə təcrübə var və bu, sektorun inkişafına böyük töhfə olar. O, kinoteatrlarda filmlərin rus və türk dillərində nümayişinə də toxunaraq ölkədə təhlükəsizlik sertifikatına malik dublyaj studiyası olmadığını dedi.

"Park Cinema" kinoteatrlar şəbəkəsinin icraçı direktoru Elnur Allahverdiyev hazırda binası təmirli və təmirsiz olan kinoteatrların fəaliyyətinin bərpasına təşəbbüs göstərilməsinin əhəmiyyətini qeyd etdi.

Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi Əli İsa Cabbarov bildirdi ki, özəl studiyalar artıq yüngül komediya mərhələsini adlayıb. Bu gün kino prokatında özəl studiyalar romantik komediyalar, kriminal dramlarla təmsil olunurlar.

Kinorejissor Emil Quliyev maliyyə mexanizmlərinin bölünməsi, paytaxtla yanaşı, regionlarda da kinoteatrların fəaliyyətinin bərpasının mümkünlüyünü bildirdi.

Panelin sonunda çıxışlar ətrafında müzakirələr aparıldı.

## "Azərbaycan kinosunda beynəlxalq təcrübənin tətbiqi"




Aprelin 21-də günün ikinci yarısında Kino Forumunun "Azərbaycan kinosunda beynəlxalq təcrübənin tətbiqi" mövzusunda sonuncu panel iclası keçirildi.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənovun moderatorluğu ilə reallaşan iclasda "Kino sahəsində planlı iqtisadiyyat modelindən bazar iqtisadiyyat modelinə keçid", "Beynəlxalq kino kontekstində inteqrasiya mexanizmləri", "Xarici sərmayənin kino sənayesinə cəlb olunması prinsipləri" istiqamətləri üzrə müzakirələr aparıldı.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kino idarəsinin müdiri Erkin Yılmaz, Rusiya Dövlət Film Fondunun icraçı direktoru Fyodor Sosnov, Kann, Venesiya və San-Sebastyan film festivallarının tərtibatçısı olmuş Matyö Darras, Hollivud rejissoru Timur Bekmambetovun "Bazelevs" studiyasının baş prodüseri Lalə Rüstəmova, beynəlxalq media hüququ və əqli mülkiyyət sahəsi üzrə hüquqşünas Levan Nanobaşvili, Kann, Venesiya, Berlin və Sundance festivallarının mükafatçısı, prodüser Giyom de Şeyin adıçəkilən mövzular üzrə məruzələri dinlənildi.

İştirakçıları maraqlandıran suallar cavablandırıldı.

Bununla da, iki gün davam edən forum başa çatdı. Sonda iştirakçıların xatirə fotoları çəkdirildi.

Qeyd edək ki, forumla bağlı Heydər Əliyev Mərkəzində Azərbaycanın 125 illik kino salnaməsini əks etdirən geniş fotosərgi də açılmışdı.

# Müasir Azərbaycanın memarı

## “Heydər Əliyev İli” tədbirləri davam edir

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində “Azərbaycan deyəndə səni düşünürük biz...” adlı inşa-yazı müsabiqəsi keçirilib. Ağcabədi şəhər ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirak etdiyi müsabiqənin məqsədi Ümummilli liderin zəngin dövlətçilik irsinin və ideyalarının yeni nəsillər tərəfindən öyrənilməsi, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsidir. Müsabiqənin qalibləri Heydər Əliyev Mərkəzinin diplomları ilə təltif olunacaq.



Ağdaş rayon MKS-nin Yuxarı Ağcayazı kənd kitabxana filialının təşkilatçılığı ilə “Heydər Əliyev – 100” adlı tədbir keçirilib. Məktəblilərin ifasında Ulu öndərə həsr edilmiş şeirlər səsləndirilib, kitablardan ibarət sərgi nümayiş olunub.

Daşkəsən rayon Mədəniyyət Mərkəzi, rayon İcra Hakimiyyəti və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında Ümummilli liderin 100 illiyinə həsr olunmuş şeir qiraəti müsabiqəsi keçirilib. Qaliblər fəxri fərmanla təltif edilib.

Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində “Heydər Əliyev və incəsənət xadimlərinə diqqət və qayğı” adlı tədbir keçirilib. Şagirdlər Ulu öndərə həsr olunmuş şeirlər söyləyib, müxtəlif musiqi nömrələrini ifa ediblər.

Masallı Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Masallı şəhər 7 saylı tam orta məktəbində “Heydər Əliyev – müasir Azərbaycanın memarı” mövzusunda tarix dərsi keçirilib.



Neftçala şəhər Camal İsmayılov adına Uşaq incəsənət məktəbində Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan konsert təşkil edilib.

Ağstafa rayon Hüseyn Arifin Ev-Muzeyində “Ulu öndər Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda tədbir keçirilib. Çıxışlarda Azərbaycanda gənclər hərəkatının tarixindən, ölkəmizin həyatında gənclərin rolundan danışılıb. Heydər Əliyevin gənclərin hərtərəfli inkişafı ilə bağlı həyata keçirilmiş islahatlarda əvəzsiz xidmətləri xüsusi vurğulanıb.

Samux şəhər Uşaq musiqi məktəbinin Xalq çalğı alətləri şöbəsində Ulu öndərin 100 illiyinə həsr olunmuş konsert təşkil edilib. Konsertdə şagirdlərin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib.

# “Xatirə bağı” aksiyası

Lənkəran şəhərində “Xatirə bağı” aksiyası keçirilib. Tədbir İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlılara həsr edilib.



Aksiya Bakıdakı Rus Evi (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi), Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası və Azərbaycan Rus Gənclər Assosiasiyası tərəfindən təşkil edilib.

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin mətbuat xidmətindən verilən məlumata görə, Lənkərandakı Müqəddəs Tanrıdoğuran Himayədarı məbədinə bitişik ərazidə 20 yasəmən və maqnoliya tingi əkilib.

Beynəlxalq “Xatirə bağı” aksiyası “Xatirə bağı” qeyri-kommersiya təşkilatının, Ümumrusiya “Qələbə könüllüləri” ictimai hərəkatının təşəbbüsü ilə 2020-ci ildən keçirilir. Aksiyanın əsas məqsədi İkinci Dünya müharibəsi illərində həlak olmuş döyüşçülərin hər birinin xatirəsini anmaq üçün 27 milyon ağac əkməkdir.

Bakı Yeparxiyasının katibi, arximandrit Aleksi (Nikonorov), Rusiyanın Azərbaycandakı Səfirliyinin müşaviri Andrey Rumyantsev, “Rossotrudniçestvo” Agentliyinin Bakıdakı nümayəndəliyinin şöbə rəisi Dmitri Yeqorov aksiyanın mahiyyəti barədə söhbət açıblar.

Tədbirdə Lənkəran şəhər sakinləri, rus icmasının üzvləri iştirak ediblər.

# Paytaxtdan bölgələrə sənət sovqatı

## Teatr və musiqi kollektivlərinin regionlara növbəti qastrolu gerçəkləşib

əvvəli səh. 1-də

### İsmayıllı sakinləri üçün “Pantomim buketi”

Azərbaycan Dövlət Pantomima Teatrı isə aprelin 24-də İsmayıllı şəhərinə səfər edib.

Pantomimçilər İsmayıllı teatrsevərlərə “Pantomim buketi”ni nümayiş etdiriblər.

Bundan öncə də yerli və beynəlxalq festivallarda uğurla təmsil olunan tamaşa teatrsevərlərin alqışları ilə qarşılanıb.



İsmayıllı rayon rəhbərliyi “Heydər Əliyev İli” çərçivəsində onların qonağı olan Dövlət Pantomima Teatrının kollektivinə təşəkkür edib, teatrın bu gəlişinin İsmayıllı teatrsevərləri üçün əsl bayrama çevrildiyini vurğulayıb.

### “Məlikməmməd” qusarlı balacaların qonağı olub

Azərbaycan Dövlət Kukla Teatrı aprelin 24-də Qusar Dövlət Ləzgi Dram Teatrının binasında sənətsevərlərə “Məlikməmməd” tamaşasını nümayiş etdirib.

Azərbaycan xalq nağılı əsasında hazırlanan tamaşanın əsas ideyası uşaq və yeniyetmələrə cəsarət, dürüstlük və mübarizlik aşılamaqdır.

Birhissəli tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyevdir.

Rejissor klassik nağılı İkinci Qarabağ müharibəsi, tarixi Zəferimizlə əlaqələndirməklə ona fərqli prizmadan baxmağa, dövrümüzün real qəhrəmanları və hadisələri ilə bağlamağa nail olub.

Paytaxtdakı teatr və musiqi kollektivlərinin bölgələrə qastrol səfərləri may ayında da davam edəcək.



Xatırladaq ki, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə paytaxtda fəaliyyət göstərən bir sıra teatrlar mart ayında da bölgələrdə qastrolda olmuşdu. Aksiyanın məqsədi regionlarda mədəni həyatı fəallaşdırmaq, gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsinə təkan vermək, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.

### “Danışan gəlincik” Lənkəranda uşaqları sevindirib

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyorları “Danışan gəlincik” tamaşası ilə aprelin 24-də Lənkəran Dövlət Dram Teatrında teatrsevərlərin qarşısına çıxıblar.



Abdulla Şaiqin eyniadlı əsəri əsasında hazırlanmış “Danışan gəlincik” birhissəli musiqili nağıl-tamaşa əməkdar artist Loğman Kərimovun quruluşunda təqdim olunub.

Səhnə əsərinin bədii tərtibatı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğluna, musiqi tərtibatı Həmid Kazımzadəyə məxsusdur. Tamaşanın rejissor-assistenti Könül Kərimovadır. Rolları Əməkdar artistlər Şəlalə Şahvələdqızı, Elnar Qarayev, aktyorlar Ramin Şıxəliyev, İlahə Həsənova, Nigar Güləhmədova, Xədicə Novruzlu ifa edirlər.

Tamaşada varlı şah sarayı və kasıb daxması olan iki ailənin həyat tərzi əks olunub. Şahzadə qız padşah olan atasının hər şeyə qadir olduğunu düşünür. Rəfiqəsi olmadığı üçün danışan gəlincik alınmasını istəyir. Onun arzusu dərhal yerinə yetirilir. Kasıb bir ailənin qızını pulla alıb şahzadəyə danışan gəlincik kimi hədiyyə edirlər. Amma dünyada çox şeyi pulla satın almaq mümkün olsa da, insan qəlbini, ailə mehribanlığını satın almaq mümkün deyil. Əsərdə bu ideya əsas götürülür və danışan gəlincik şahzadəyə həyat dərsi verir.

Kiçikyaşlı uşaqlar və aşağı sinif şagirdləri rəngarəng tərtibatı, baxımlı aktyor oyunu və oynaq musiqisi olan tamaşaya böyük maraqla baxıblar.

**Hazırladı: N.Məmmədli**

# Gəncədə Türkiyənin dövlət bayramı qeyd olunub

Türkiyə Cümhuriyyətinin Gəncədəki Baş Konsulluğunun təşəbbüsü, şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Gəncə Dövlət Filarmoniyasında qardaş ölkənin dövlət bayramı, 23 Aprel – Milli Suverenlik və Uşaq Bayramı qeyd edilib.




Baş konsul Recep Öztop bildirib ki, bu bayram Türkiyənin qurucusu Mustafa Kamal Atatürkün dünya uşaqlarına verdiyi bir hədiyyədir. Türkiyənin hər yerində olduğu kimi, Azərbaycanın da bölgələrində, o cümlədən Gəncə şəhərində bu bayram böyük coşqu ilə qeyd olunur.

Digər çıxışlarda Türkiyə və Azərbaycan arasında qardaşlığın tarixi köklərə söykəndiyi bildirilib.

Daha sonra konsert proqramı təqdim olunub. Gəncə şəhər Uşaq incəsənət məktəbinin “Xəmsə” zərb alətləri ansamblı, “Gəncə qönçələri” rəqs ansamblı, Gəncə Dövlət Filarmoniyasının “Xəmsə” uşaq rəqs ansamblı, Uşaq-gənclər inkişaf mərkəzi, Gəncə uşaq evinin və şəhərin ümumtəhsil məktəblərinin istedadlı şagirdlərinin çıxışları alqışlarla qarşılanıb.

Baş konsulluq tərəfindən uşaqlara hədiyyələr təqdim olunub.

Xatırladaq ki, 1920-ci il aprelin 23-ü Türkiyə Böyük Millət Məclisinin yarandığı və türk xalqının suverenliyinin elan edildiyi tarixdir. Cümhuriyyətin banisi Mustafa Kamal Atatürk 1924-cü ildə 23 aprelin bayram edilməsi haqqında qərar imzalayıb. 1929-cu ildən etibarən Türkiyədə 23 Aprel – Milli Suverenlik və Uşaq Bayramı qeyd olunmağa başlanıb.

# “Kitab olsun amalımız”

Tovuz rayon Mərkəzi Kitabxanasında 23 aprel – Dünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə “Kitab olsun amalımız” mövzusunda tədbir təşkil olunub.

Çıxışlarda bu günün tarixi haqqında məlumat verilib. Qeyd olunub ki, UNESCO-nun 1995-ci ildə təsis etdiyi günün dünya ədəbiyyatı üçün xüsusi anlamı var. 23 aprel 1616-cı ildə dünya ədəbiyyatının üç tanınmış siması – ingilis şairi və dramaturqu Vilyam Şekspir, ispan yazıçısı Migel de Servantes və Peru yazıçısı İnka Qarsilaso de la Veqa vəfat edib. Əlamətdar gün onların xatirəsinə ehtiram kimi təsis olunub. Belə bir günün təsis edilməsi həm də kitablara və müəlliflərə dünya miqyasında ehtiramın göstəricisi, kitabların hər kəsə əlçatan olmasının təşviqidir.

***



Əlamətdar gün münasibətilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Cəlaləddin Budadoğlu ilə oxucuların görüşü keçirilib. Vurğulanıb ki, kitab və müəlliflik biri digərini tamamlayan və daima qarşılıqlı əlaqədə olan anlayışlardır. Müəllif hüququ əqli mülkiyyətin ən vacib, mürəkkəb və dəyərli bir hissəsidir. Bu gün dünyanın hər yerində milyonlarla insanı bir araya gətirən platformaya çevrilib. Daha sonra C.Budadoğlu şeirlərindən nümunələr səsləndirib.

# Uşaq İncəsənət Festivalının ilk mərhələsi davam edir



Xəbər verdiyimiz kimi, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalının birinci mərhələsi keçirilir.

Aprelin 17-də respublika üzrə ilkin olaraq 30 müəssisədə birinci mərhələyə start verilib. Aprelin 18 və 19-da isə digər müəssisələrdə ilk mərhələ başlanılıb. Ümumilikdə isə festival tədbirləri 121 mədəniyyət müəssisəsində gerçəkləşəcək.

Ağdam Muğam Mərkəzində keçirilən festivalın ilk günündə üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə fortepiano ifaçıları səhnəyə çıxıb. Hər bir iştirakçı dünya və Azərbaycan bəstəkarlarının əsərlərini ifa edib.

***

Masallı RMİ-nin əhatə etdiyi Masallı, Cəlilabad və Yardımlı rayonları üzrə ümumilikdə 7 ünvanda keçirilən birinci mərhələdə fortepiano, bədii qiraət, solo milli rəqs və solo müasir rəqs nominasiyalarında çıxışlar dəyərləndirilib.

***

Uşaq İncəsənət Festivalının birinci mərhələsi Balakəndə də uğurla davam edir. Şəki RMİ-dən bildirilib ki, Balakən rayonunda festivalın birinci mərhələsində iştirak etmək üçün 165 uşaq qeydiyyatdan keçib. Seçim turları Uşaq incəsənət məktəbində təşkil edilib. Aprelin 19-20-də fortepiano və skripka ifaçılığı nominasiyaları üzrə çıxışlar olub. Aprelin 25-də isə 16 iştirakçı xalq çalğı alətləri nominasiyası üzrə öz qabiliyyətini nümayiş etdirib.

Növbəti günlərdə iştirakçılar vokal və estrada oxuma, xor, caz, rəssamlıq, heykəltəraşlıq, dəzgah tətbiqi və rəqəmsal incəsənət nominasiyaları üzrə münsiflər heyəti qarşısında çıxış edəcəklər.

***

Sabirabad RMİ-nin tabeliyindəki 9 müəssisədə keçirilən birinci mərhələdə ilkin olaraq, piano ifaçılığı, rəssamlıq, dekorativ-tətbiqi sənət və solo milli rəqs nominasiyaları üzrə qeydiyyatdan keçən uşaqlar iştirak ediblər. Ümumilikdə 252 uşaq qeyd olunan nominasiyalar üzrə Uşaq İncəsənət Festivalının birinci mərhələsinə qatılıb.

***






Qax rayonu üzrə festivalın seçim turları rayon Mədəniyyət Mərkəzində və Heydər Əliyev Mərkəzində təşkil olunub. Seçim turunun ilk günündə 24 uşaq piano ifaçılığı, tətbiqi sənət və rəssamlıq nominasiyaları üzrə öz qabiliyyətini nümayiş etdirib. Uşaqların ifaçılıq və yaradıcılıq qabiliyyətləri münsiflər heyəti tərəfindən qiymətləndirilib. Növbəti günlərdə xalq çalğı alətləri, xor, rəqs, xanəndəlik sənəti, bədii qiraət, aktyorluq və rəqəmsal incəsənət nominasiyaları üzrə tədbirlər keçiriləcək.

Ümumiyyətlə, festivalın Qax rayonu üzrə mayın 2-dək davam edəcək seçim turlarında 115 uşağın iştirakı nəzərdə tutulur.

***

Kürdəmir RMİ-nin əhatə etdiyi Beyləqan rayon Mədəniyyət Mərkəzində xalq çalğı alətləri ifaçılığı nominasiyası üzrə qeydiyyatdan keçmiş 40 nəfər, Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbində piano ifaçılığı nominasiyası üzrə qeydiyyatdan keçmiş 40 nəfər iştirakçı məharətini göstərib. Füzuli rayon Heydər Əliyev Mərkəzində piano ifaçılığı nominasiyası üzrə 39 nəfər iştirakçı öz bacarıqlarını münsiflər qarşısında nümayiş etdirib.

Aprelin 19-da isə festival iştirakçıları regional idarənin 7 mədəniyyət müəssisəsində müxtəlif nominasiyalar üzrə çıxış ediblər.

***

Qeyd edək ki, üç turdan ibarət festival 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilir. Festivalın respublikamızın bütün rayon və şəhərləri, o cümlədən Naxçıvan Muxtar Respublikasından 27 minədək iştirakçısı var.

Festivalın birinci mərhələsində iştirakçıları qiymətləndirmək üçün münsif kimi ümumilikdə 2500-dən çox mütəxəssis cəlb edilib. Festival müddətində 320 koordinator və 250 sistem inzibatçısı fəaliyyət göstərəcək.

Peşəkar və həvəskar kateqoriyaları üzrə keçirilən festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edəcək. II mərhələ iyun-avqust aylarında reallaşacaq. Final mərhələsi sentyabr ayında Bakıda keçiriləcək.

**Nurəddin**

# “Qarabağnamə” Heydər Əliyev Mərkəzinin səhnəsində nümayiş olunub



Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında hazırlanan və uzun illər Akademik Milli Dram Teatrının repertuarında olan “Qarabağnamə” tamaşası aprelin 19-da Heydər Əliyev Mərkəzinin Auditorium zalının səhnəsində nümayiş olunub.

Tamaşa Heydər Əliyev Mərkəzi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Ümummilli liderin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev və milli teatr sənəti” layihəsi çərçivəsində təqdim edilib.

Quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov olan səhnə əsərində İbrahim xanı Xalq artisti Kazım Abdullayev, Ağabəyim ağanı Əməkdar artist Məsmə Aslanqızı oynayıb. Tamaşada Xalq artistləri Əli Nur, Firəngiz Mütəllimova, Hacı İsmayılov, Rafiq Əzimov, Ramiz Məlik, Əməkdar artistlər Elnar Qarayev, Elxan Quliyev, Elşən Cəbrayılov, Əminə Babayeva, Kazım Həsənquliyev və digərləri – ümumilikdə 21 aktyor rol alıb.

XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə həyatından bəhs olunan səhnə əsərinin bədii tərtibatını Əməkdar rəssam İsmayıl Məmmədov verib.

Qeyd edək ki, İlyas Əfəndiyevin son pyesi olan “Hökmdar və qızı” Milli Dram Teatrında ilk dəfə 1996-cı ildə səhnəyə qoyulub. 1997-ci il sentyabrın 20-də tamaşaya baxan Ümummilli lider Heydər Əliyev yaradıcı heyətlə görüşdə əsəri yüksək qiymətləndirib, onun həm tariximizin, həm də xalqımızda, xüsusən də gənclərdə vətənpərvərlik, müstəqillik hisslərinin təbliği baxımından əhəmiyyətini qeyd edib. Ulu Öndər elə həmin görüşdə bu pyes əsasında bədii filmin çəkilməsinin də vacibliyini bildirib. Əsərin motivləri əsasında çəkilmiş “Hökmdarın taleyi” adlı ikiseriyalı film 2008-ci ildə təqdim olunub.



“Hökmdar və qızı” pyesi əsasında yeni quruluşda səhnəyə qoyulan “Qarabağnamə” tamaşası isə ilk dəfə 2011-ci il martın 10-da nümayiş etdirilib və bu adla artıq 80-ci dəfə təqdim olunub. Bu dəfə “Qarabağnamə” Azərbaycanın Vətən müharibəsindəki tarixi Zəfərindən sonra yeni finalla oynanılıb.

Rejissor Mərahim Fərzəlibəyov jurnalistlərə açıqlamasında bu barədə deyib: “1997-ci il sentyabrın 20-də Heydər Əliyev “Hökmdar və qızı” tamaşasına baxdı, əsər haqqında qiymətli fikirlərini söylədi. Ulu öndərin bu sözlərini hər zaman xatırlayıram: “Məhz “Hökmdar və qızı” əsərində biz öz tariximizi görürük. Bizim gənclər, cavanlar bu əsərə baxaraq ibrət götürməlidir”. Bu tamaşa Azərbaycan xalqının tarixi və bu günü ilə bağlıdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz zəfər çalıb, torpaqlarımız azad olunub. Tamaşa Qarabağda tarixi Zəfərdən sonra izləyiciyə bir başqa ovqat bəxş edir...”.

# Ulu öndərin 100 illiyi münasibətilə daha bir musiqi axşamı



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş daha bir konsert keçirilib.

Aprelin 20-də gerçəkləşən konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Fəxrəddin Kərimov) və respublika və beynəlxalq müsabiqələr laureatı Şərif Bağırov (klarnet) çıxış edib.

Proqramda S.Raxmaninovun “Romans və skertso”, P.Hindemitin “Simli orkestr üçün 5 pyes, op.44”, C.Gerşvin “Rhapsody in blue” (klarnet və simli orkestr üçün işləyəni T.Kim, ilk ifa), S.Kolric-Teylor “Simlilər üçün 4 novella, op.52” əsərləri səsləndirilib.

Konsert proqramı klassik musiqi həvəskarları tərəfindən maraqla qarşılanıb.

## “Şur” muğamına gedən yol”

### Ştutqartda azərbaycanlı bəstəkarın konserti

Almaniyanın Ştutqart şəhərindəki “La Lune” teatrında azərbaycanlı bəstəkar Günay Mirzəyevanın trombon və fortepiano üçün “Via “Şur” (“Şur” muğamına gedən yol”) əsərinin premyerası böyük uğurla keçib. Əsəri trombonda Heydər Nəsrulla, fortepianoda Günay Mirzəyeva ifa ediblər.



Əsər Almaniya Mədəniyyət Nazirliyinin, Almaniya Bəstəkarlar Assosiasiyası və Ştutqart Aktual Musiqi Assosiasiyasının dəstəyi ilə hər il keçirilən layihə çərçivəsində yazılıb. Bu dəfə layihə muğam musiqisinə həsr olunub.

Konsertdə bəstəkarın Fadel Boubakerin udda müşayiəti ilə ifa etdiyi iki mahnı – “Sarı gəlin” və “Bana-bana gəl” mahnıları da alqışlarla qarşılanıb.

Günay Mirzəyeva “Azərbaycanın gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının (2007-2015)” təqaüdçüsüdür. Ştutqart Konservatoriyasının, Roma Santa Çeçiliya Konservatoriyasının məzunudur, Karlsrue Konservatoriyasında məşhur bəstəkar, professor Volfqanq Rimin sinfində oxuyub. Almaniyada Azərbaycan Mədəniyyət Mərkəzinin sədridir. Azərbaycan musiqisini və mədəniyyətini Avropa İttifaqı ölkələrində uğurla təmsil və təbliğ edir.

## Riad Məmmədov Rusiya Bəstəkarlar İttifaqının üzvü seçilib

Rusiya Bəstəkarlar İttifaqının növbəti iclasında təşkilata yeni üzvlər seçilib. Onların arasında soydaşımız, bəstəkar, pianoçu və musiqişünas, caz və klassik musiqi əsərlərinin mahir ifaçısı Riad Məmmədov da var.

Riad Məmmədov Bakıda dünyaya gəlib. P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası və bu təhsil ocağının aspiranturasının fortepiano ixtisası üzrə məzunu olan həmyerlimiz həm də bir çox beynəlxalq festivalların iştirakçısıdır.

## İfaçılarımız XII Pera Beynəlxalq Musiqi Festivalında




Türkiyənin İstanbul şəhərində XII Pera Beynəlxalq Musiqi Festivalı keçirilib. 6-9 aprel tarixlərində gerçəkləşən festivalda ölkəmizi fleyta ifaçısı Əminə Zülfüqarova, pianoçular Məryəm Hüseynova və Nigar Həsənova təmsil ediblər.

İfaçılar Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev və Cahangir Zülfüqarovun əsərlərini ifa ediblər. Festivalın konsertləri İstanbul radiosu ilə canlı yayımlanıb.

Qeyd edək ki, ənənəvi Pera Beynəlxalq Musiqi Festivalı mədəni dəyərlərin təbliğinə töhfə vermək və beynəlxalq musiqi mədəniyyəti haqqında məlumatlılığı artırmaq məqsədilə təşkil edilir. Festival eyni zamanda musiqinin universallığı ilə gənclərə qardaşlıq, dostluq, sənət sevgisi kimi müsbət emosiyalar və davranışlar qazandırmaq, klassik musiqiyə marağı və sevgini artırmaq məqsədi də daşıyır.

**L.Azəri**

## Ölkəmiz Varşavada Avrasiya Film Festivalında təmsil olunub

Aprelin 13-dən 23-dək Polşanın paytaxtı Varşavada Avrasiya Film Festivalı keçirilib. İlk dəfə keçirilən festival yerli auditoriyaya Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin kinematoqrafiyası ilə yaxından tanış olmağa şərait yaradıb.

Festivalın açılışında Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova xüsusi qonaq qismində çıxış edib. Səfir bildirib ki, bu il Azərbaycan kinematoqrafiyası 125 illiyini qeyd edir, ölkəmizdə film sənayesinin tarixi, demək olar ki, dünya kinematoqrafiyasının tarixi ilə üst-üstə düşür. Parisdə Lümyer qardaşları kinematoqrafı ixtira etdikdən üç il sonra, 1898-ci ildə Bakıda fotoqraf Aleksandr Mişon tərəfindən lentə alınan ilk süjetlərin nümayişi ilə yerli kinematoqrafiyanın əsası qoyulub.

Diplomat ötən il Azərbaycanın Polşadakı Səfirliyinin Polşa Kinorejissorları Assosiasiyası ilə birgə “Azərbaycan Filmləri Həftəsi” təşkil etdiyini, həmçinin Bakının “Visla” Polşa Film Festivalına ev sahibliyi etdiyini diqqətə çatdırıb.

Avrasiya Film Festivalının ilk buraxılışında iki Azərbaycan filminin yer aldığını məmnunluqla vurğulayan səfir ekran əsərləri barədə tədbir iştirakçılarına məlumat verib.

Qeyd edib ki, bu, rejissor Asif Rüstəmovun “Mərmər soyuğu”, Polşada yaşayan həmyerlimiz Həmid İbadullayevin “Ünvansız ruh” filmləridir. Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Azərbaycanfilm” kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və “Arizona Films” şirkətlərinin birgə istehsalı olan “Mərmər soyuğu” bədii filmi Tallində “Qara Gecələr” Film Festivalının əsas müsabiqə proqramında, həmçinin bu yaxınlarda Fransada keçirilmiş Beynəlxalq Asiya Film Festivalında və Bolqarıstanda, Beynəlxalq Sofiya Film Festivalında nümayiş olunub.




“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (27)

### 1981-ci il 31 avqust

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev respublikada səfərdə olan məşhur Norveç səyyahı və alimi Tur Heyerdalı qəbul edib.

### 1981-ci il 25 sentyabr

Heydər Əliyev Bakı şəhərində keçirilən ümumi və tətbiqi kimya üzrə XII Mendeleyev qurultayının iştirakçıları üçün təşkil olunmuş konsertdə iştirak edib.

### 1981-ci il 27 sentyabr

Heydər Əliyev Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin açılış mərasimində nitq söyləyib.

*“Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi rayonun ictimai-siyasi və mədəni həyatında mühüm səhifədir. Məharətlə seçilmiş eksponatlar rayonun təkcə zəngin tarixi keçmişindən deyil, həm də bugünkü gözəl həyatından söhbət açır. Muzey rayonda ideya tərbiyə işinin daha da təkmilləşməsinə kömək etməlidir. Eyni zamanda respublikanın başqa şəhərlərində və rayonlarında açılmış və açılmaqda olan tarix-diyarşünaslıq muzeyləri Azərbaycanın nailiyyətlərini daha dərindən əks etdirməlidir...”.*

### 1981-ci il 6 oktyabr

Heydər Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin 840 illik yubiley təntənələrində iştirak etmək üçün Bakıya gəlmiş qonaqları qəbul edib.

### 1981-ci il 23 oktyabr

Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş (SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 oktyabr 1981-ci il tarixli fərmanı ilə) Xalq yazıçısı Mirzə İbrahimovun 70 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edib.

*“Bu gün biz Mirzə İbrahimovun 70 illik yubileyini qeyd edərkən və onun 50 illik ədəbi fəaliyyətinə bir növ yekun vurarkən cəsarətlə deyə bilərik ki, yazıçının bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında mühüm yer tutur, onun inkişafına, yazıçıların bir neçə nəslinin təşəkkülünə böyük təsir göstərmişdir.*

*Mirzə İbrahimovun ədəbi fəaliyyəti zəngin və rəngarəngdir. İlk böyük əsəri olan “Həyat” pyesi Cəfər Cabbarlının “Sevil”, “Almaz”, “Yaşar” kimi əsərləri ilə yanaşı respublikada sosializm quruculuğunda böyük rol oynamışdır... Mirzə İbrahimov öz əsərlərində zamanın ən aktual məsələlərini böyük bədii qüvvə ilə qələmə alır və oxucular onun yaradıcılığını Azərbaycan tarixinin həqiqi salnaməsi kimi qəbul edirlər. Mirzə İbrahimovun roman janrında da xidmətləri böyükdür. O, “Gələcək gün”, “Böyük dayaq”, “Pərvanə” kimi epik əsərlər yaratmışdır ki, bunlar da Azərbaycan ədəbiyyatının, bütün müasir ədəbiyyatın həqiqətən görkəmli əsərlərindəndir.*

*Bədii yaradıcılığı ilə yanaşı Mirzə İbrahimovu respublikamızda və ölkəmizdə görkəmli bir ədəbiyyatşünas, alim, tənqidçi və publisist kimi də tanıyırlar. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü kimi bu sahələrdə onun fəaliyyəti yüksək qiymətə layiqdir...*

*Mirzə İbrahimov respublikanın ictimai həyatında da həmişə fəal iştirak edir. O, gənc yaşlarından partiya, sovet orqanlarının və ictimai orqanların tərkibinə seçilmiş, maarif naziri, Nazirlər Soveti sədrinin müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. SSRİ Ali Sovetinin deputatı, Azərbaycan KP MK-nın üzvüdür.*

*Uzun illər Mirzə İbrahimov Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmiş, SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur. Azərbaycan yazıçılarının VII qurultayında o, yenidən respublika Yazıçılar İttifaqı idarə heyətinin sədri seçilmişdir... 1977-ci ildən Mirzə İbrahimov Asiya və Afrika Ölkələri Həmrəyliyi Sovet Komitəsinin sədridir və bu sahədə onun fəaliyyəti layiqincə qiymətləndirilir.*

*Sosialist Əməyi Qəhrəmanı adı Mirzə İbrahimovun yaradıcılığına və ictimai fəaliyyətinə yüksək qiymətdir. Eyni zamanda bu, Azərbaycan ədəbiyyatının, SSRİ xalqlarının bütün ədəbiyyatının nailiyyətlərinə verilən yüksək qiymətdir...”.*

### 1981-ci il 18 noyabr

SSRİ Yazıçılar İttifaqının orqanı olan “Literaturnaya qazeta”da Heydər Əliyevin “Qoy ədalət zəfər çalsın” başlıqlı müsahibəsi dərc olunub.

### 1981-ci il 24 noyabr

Heydər Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında böyük Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin 780 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak edib.

### 1981-ci il 27 noyabr

Heydər Əliyev “Azərbaycanın tarix və mədəniyyət abidələri” sərgisini ziyarət edib.

### 1981-ci il 30 noyabr

Azərbaycan Teatr Cəmiyyətinin VII qurultayı keçirilib. Heydər Əliyev qurultayda iştirak edib.

***

Ədəbiyyat, incəsənət xadimlərinin fəaliyyəti dövlət təltifləri ilə təşviq olunurdu.

### 1981-ci il 26 avqust

Ədəbiyyat sahəsində xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq “Yazıçı” nəşriyyatının redaktoru, yazıçı Seyfəddin Dağlı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1981-ci il 11 sentyabr

Ədəbiyyat sahəsində xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq yazıçı Novruz Gəncəli respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1981-ci il 16 noyabr

Azərbaycan sovet təsviri sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 75 illiyi ilə əlaqədar olaraq Xalq rəssamı Lətif Kərimov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

2000 №31 26 aprel 2023
www.medeniyyet.az

# Xabarovskda "Heydər Əliyev – Rusiyadan baxış" kitabının təqdimatı

Xəbər verdiyimiz kimi, aprelin 20-də Azərbaycan Milli Kitabxanası ilə Rusiyanın Uzaq Şərq Dövlət Elmi Kitabxanası (Xabarovsk) arasında onlayn görüş keçirilib.



Görüş Azərbaycanın Yekaterinburqdakı Baş konsulluğunun və Rusiyanın Xabarovsk diyarında fəaliyyət göstərən "Azərbaycan birliyi" ictimai təşkilatının təşəbbüsü ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev – Rusiyadan baxış" ("Гейдар Алиев – взгляд из России") kitabının təqdimat mərasimi çərçivəsində gerçəkləşib. Kitabxanada "Heydər Əliyev Baykal-Amur Magistralının tikintisində" adlı fotosərgi də açılıb.

Azərbaycanın Yekaterinburqdakı Baş konsulluğunun dəstəyi ilə nəşr olunan kitabın müəllifləri Novosibirsk Dövlət Texniki Universitetinin professoru Mixail Çernyakov və Novosibirsk Dövlət İqtisadiyyat və İdarəetmə Universitetinin dosenti Kamal Əkbərov, elmi redaktoru AMEA-nın Tarix İnstitutunun şöbə müdiri tarix elmləri namizədi Cəbi Bəhramovdur.

Tədbirə Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi dövrdə Xabarovsk diyarına səfəri zamanı onunla görüşmüş dəmiryolçular, ictimaiyyət nümayəndələri, diasporumuzun təmsilçiləri qatılıb.

Azərbaycanın Yekaterinburqdakı baş konsulu vəzifəsini icra edən Şöhrət Mustafayev, kitabın müəllifləri M.Çernyakov və K.Əkbərov, Uzaq Şərq Dövlət Elmi Kitabxanası baş direktorunun müavini Qalina Starkina, "Azərbaycan birliyi" ictimai təşkilatının rəhbəri Məmməd İsgəndərov, Sakit Okean Dövlət Universitetinin professoru Vurğun Mehtiyev və başqaları çıxış ediblər.

Heydər Əliyev haqqında sənədli film nümayiş olunub, videobağlantı vasitəsilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən hazırlanmış elektron məlumat bazası iştirakçıların nəzərinə çatdırılıb. Həmçinin bildirilib ki, Azərbaycan Milli Kitabxanası tərəfindən Uzaq Şərq Dövlət Elmi Kitabxanasına Heydər Əliyev haqqında, eləcə də Azərbaycan ədiblərinin əsərlərindən ibarət 40-dan çox kitab hədiyyə edilib.

Tədbirin sonunda iştirakçılara "Heydər Əliyev – Rusiyadan baxış" kitabının nüsxələri paylanıb.

# Orta əsr mənbələrində və müasir tədqiqatlarda Qarabağ və Şuşa

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu A.Bakıxanov adına Tarix İnstitutu ilə birgə "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar keçirib.

Seminarı Tarix İnstitutunun icraçı direktoru İlqar Niftəliyev açaraq Şuşanın tarixi, mədəniyyəti, eləcə də I və II Qarabağ müharibələri haqqında məlumat verib.

Sonra tarix elmləri doktoru Mais Əhmədov və tarix üzrə fəlsəfə doktoru Nigar Axundova məruzə ilə çıxış ediblər.

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun icraçı direktoru Zaur Həsənov Qarabağ ərazisində aparılan tədqiqatlar barədə məlumat verib. Alim İsveçrə, Polşa, Koreya və Azərbaycan arxeoloqlarından ibarət beynəlxalq qrupun Füzuli rayonu ərazisində yerləşən "Yedditəpə" kurqanında gördüyü işlərdən danışıb. Bildirilib ki, ərazidə 20-dən çox kurqan var.

Daha sonra professor Arif Məmmədov Qarabağ ərazisində aparılan monitorinqlər barədə söz açıb.

Dosent Akif Quliyev "Məhkəmə arxeologiyası və antropologiyası" adlı beynəlxalq konfransa hazırlıq və aparılan treninqlərin nəticələri haqqında məlumat verib. Bildirib ki, Qarabağ müharibələri nəticəsində ümumilikdə 4000-dən artıq itkin düşmüş vətəndaşımız var. Onların qalıqlarının aşkara çıxarılması istiqamətində işlər həyata keçirilir.

# Qədim mətnlər və klassik mənbələr erməniçilik uydurmalarını ifşa edir

## Dünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə konfrans keçirilib

Aprelin 20-də Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" mövzusunda konfrans keçirilib.

23 aprel – Dünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan konfrans çərçivəsində Əqli Mülkiyyət Agentliyi İdarə heyətinin sədri professor Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri" kitabının təqdimatı keçirilib.

Kamran İmanov konfransı açaraq mövzunun aktuallığından danışıb. Bildirib ki, bu gün hay-erməni uydurma "qədimliliyi" erməniçiliyin təcavüzkar və riyakar izini sürdürür. Heç də təsadüfi deyil ki, XVI-XVII əsrlərə dair erməni xalqının tarixi adı altında Azərbaycanın Qarabağ, Gəncə, İrəvan, Naxçıvan və Zəngəzur diyarlarının tarixi təsvir olunur. XV əsrdə patriarx taxtının Eçmiədzinə köçürülməsindən sonra (burada patriarxlıq yeparxiyasız fəaliyyət göstərirdi, çünki yeparxiya Kiçik Asiyada qalmışdı) ermənilər bu dövrü lovğalanaraq erməni tarixinin "Eçmiədzin dövrü" adlandırdılar. Avtoxton xalqlardan fərqli olaraq, erməni alimləri "Armeniya tarixi"ni yox, "Ermənilərin tarixi"ni, bir sözlə, etnosun tarixini yazmağa məcburdurlar, ya da "Hayastan" adlı ölkəsi olmayan mifoloji hayların tarixini yazır və burada digər xalqların ərazisindən və tarixindən söhbət açırlar.



Erməni siyasətinin əsas dəst-xətti mifologiyadır. Erməni etnik aləminin mənzərəsinin bir hissəsi olan məhz bu mifologiya zahiri reallığın və burada cəmləşən əxlaq mexanizminin erməni etnosu tərəfindən qavranılması üsulunu müəyyən edir.

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, millət vəkili Sabir Rüstəmxanlı, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Xarici media ilə iş sektorunun müdiri Fuad Axundov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndəsi Nuri Aksu çıxış ediblər.

Konfrans çərçivəsində həmçinin erməni saxtakarlığını ifşa edən "Tarixin izi ilə" silsiləsindən "Keçmişin böyük yalanları: Armeniya və Hayastan" adlı televiziya filmi nümayiş etdirilib.

Professor Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan-Türk torpaqları olan Zəngəzur həqiqətləri", AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru Kərim Şükürovun "Zəngəzurun tarixi demoqrafiyası", Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlilinin "Sünik (Sisakan) adının etimologiyası və onun Üç Ox oğuzları ilə əlaqəsi" mövzusunda məruzələri dinlənilib.

Tədbir çərçivəsində "Erməni uydurmalarını ifşa edən yazılı mənbələr" adlı kitab sərgisi də təşkil edilib. Sərgidə Əqli Mülkiyyət Agentliyi tərəfindən nəşr olunan kitablar nümayiş olunub.

# İkiaylıq evlilik, ondördgünlük döyüş yolu və əbədiyyət...

## "Amil kimi bir qəhrəmanın həyat yoldaşı olduğum üçün fəxr edirəm..."



Torpaqlarımızın azadlığı uğrunda son damla qanlarına qədər döyüşərək canından keçən igidlərimizi oxucularımıza tanıtmaqda davam edirik. Bu dəfə 44 günlük Vətən müharibəsinin şəhid çavuşu Amil Hüseynovun həyat və döyüş yoluna nəzər salacağıq.

Amil Rasim oğlu Hüseynov 1986-cı il avqustun 16-da Füzuli rayonunun Əhmədalılar kəndində dünyaya göz açıb. 1993-cü ildə kənd ermənilər tərəfindən işğal ediləndən sonra ailəsi Bakı şəhərində Mədəni-Maarif Texnikumunun yataqxanasında məskunlaşıb. Amil orta təhsilini paytaxtdakı Ağdam rayon 36 nömrəli məktəbdə alıb.

Amil uşaqlıqdan bir gün torpaqlarımızı erməni işğalından azad edəcəyi hissi ilə böyüyüb, hərbçi olmaq arzusu ilə yaşayıb. Hələ kiçik yaşlarından vətənpərvərliyini həm də idman sahəsində qazandığı uğurlarla, məşğul olduğu karate üzrə yarışlarda ölkəmizi layiqincə təmsil etməklə göstərib.

Hərbi xidməti də maraqlı keçib. 2004-2006-cı illərdə beynəlxalq sülhməramlı ordunun tərkibində Kosovoda fəaliyyət göstərən Azərbaycan sülhməramlı kontingentində xidmətdə olub. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət mülki işlərdə işləyib. 2010-cu ildə Daxili Qoşunlarda xidmətə başlayıb, daha sonra Milli Ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmətdə kəşfiyyatçı kimi fəaliyyət göstərib. 2012-ci ilin dekabr ayından 2013-cü ilin aprel ayına qədər Türkiyədə komando kursunu yüksək səviyyədə başa vurub. Beyləqanda və Füzulidəki N saylı hərbi hissələrdə xidmət edib. Xidməti dövründə fəxri fərman və mükafatlara layiq görülüb.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Amil də Füzuli istiqamətində gedən döyüşlərə qatılıb. Torpaqlarımızın işğaldan azad olunmasında böyük şücaət göstərib. Oktyabrın 10-da döyüş əməliyyatı zamanı piyada əleyhinə minaya düşərək şəhadətə yüksəlib. Doğma Əhmədalılar kəndində torpağa tapşırılıb.

Şəhidin həyat yoldaşı, hazırda Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru vəzifəsini icra edən Xalisə Məmmədova bildirir ki, Amillə sonuncu dəfə 2020-ci il oktyabrın 5-də əlaqə saxlayıblar: "Ondan sonra əlaqəmiz kəsildi, biz ona görə çox narahat olduq. Qardaşım Vahid Silahlı Qüvvələrimizin giziridir. O da 44 gün boyunca torpaqlarımızın azadlığı uğrunda döyüşüb. Döyüşlər zamanı hər dəfə qardaşımdan Amili xəbər alırdım. Amil döyüşə Füzulinin Əbdürrəhmanlı kəndindən "40 metrlik" adlanan postdan başlayıb. Onların qrupundan 9 nəfər kəşfiyyatçı şəhid olub. Keçilməz deyilən "Ohanyan səddi"ni ilk dəfə Amilgilin qrupu yarıb. Amil Cəbrayılın Nüzgar kəndinin, Füzulinin Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Aşağı Əbdürrəhmanlı və bir sıra ərazilərin azad edilməsində şücaət göstərib. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, yaralanan və şəhid olan döyüşçü yoldaşlarını ərazidən çıxarıb".

Amillə 2020-ci ilin iyul ayında ailə həyatı qurduqlarını deyən Xalisə xanım onunla həm bir kəndli, həm də qohum olduqlarını bildirir: "Ailə həyatımız cəmi 2 ay çəkdi. Amil o qədər diqqətli, məsuliyyətli, hər şeyin yerini bilən insan idi ki, onun haqqında nə qədər danışsam, usanmaram. Əksinə, onun adı çəkiləndə ruhən dincəlirəm, elə istəyirəm ki, hər kəs ondan danışsın. O, mənə sağ-salamat qayıdıb gələcəyinə söz vermişdi...".

Ötən il Xalisə xanımın həyat yoldaşına və "Şuşa İli"nə həsr etdiyi "Zəfərin Amili" kitabı işıq üzü görüb. Kürdəmir RMİ-nin dəstəyi ilə ərsəyə gələn kitabın layihə rəhbəri idarənin rəisi Faiq Xudanlı, redaktoru Ramil Əhməddir: "Mən nə yazıçı, nə də ədəbiyyatçıyam. Sadəcə, 44 günlük Vətən müharibəsinin mənə hiss elətdirdiklərini qələmə almışam. Kitabda bir şəhid yoldaşının həyat mücadiləsinin çırpıntısı, müharibə dönəmində biz qadınların keçirdiyi qorxu və həyəcanı, eyni zamanda şəhid xəbəri alan qadınların qürur və kədər kimi qarışıq hisslərini əks etdirməyə çalışmışam. Ümid edirəm ki, istəyimə nail olmuşam. Bu kitab Amillə bizim əbədi sevgimiz, heç vaxt qüvvədən düşməyən nikah şəhadətnaməmiz və ölümsüz evliliyimizdir. Amilin yoxluğunda bu kitab mənim ən böyük təsəllim oldu. Amil kimi bir qəhrəmanın həyat yoldaşı olduğum üçün fəxr edirəm. Allah onun timsalında bütün şəhidlərimizin məqamını uca etsin".

Qeyd edək ki, ölkə başçısının müvafiq sərəncamları ilə Amil Hüseynov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzuli, Xocavənd, Cəbrayıl və Şuşanın azad olunmasına görə medalları ilə təltif edilib.

Füzuli rayonunda fəaliyyət göstərən B.Əliyev adına Əhmədalılar kənd tam orta məktəbi və F.Zalov adına Horadiz şəhər 3 saylı tam orta məktəbin sinif otaqlarına, o cümlədən, məzunu olduğu Ağdam rayon 36 nömrəli tam orta məktəbdə öz oxuduğu sinif otağına Amil Hüseynovun adı verilib. Bundan əlavə, Əhmədalılar kəndindəki orta məktəbin həyətində Amilin xatirəsinə bulaq inşa edilib.

Ruhu şad olsun.

**Nurəddin**

# "İnsandan müqəddəs bir ad ver mənə..."

## Həsən Xasiyevin "Yer-göy" poeması haqqında düşüncələr

Azərbaycan Yazıçılar Birliyinin üzvü, 12 kitab müəllifi şair, publisist Həsən Xasiyev həssas qəlbə, romantik düşüncəyə, güclü müşahidə qabiliyyətinə malik istedadlı qələm adamıdır. O, düşündürücü şeirləri ilə yanaşı, maraqlı poemaları ilə də oxucuların diqqətini çəkir. Şairin "Qarabağ harayı", "Oğullar", "Fəxrəddin", "Aladaş" və "Yer-göy" poemaları onun istedadının, poetik düşüncəsinin dərinliyini göstərir. Bu yazıda biz müəllifin 2013-cü ildə qələmə aldığı "Yer-göy" poeması haqqında söz açacağıq.

Bu poema yeri, göyü, canlı və cansızı, bütün kainatı xəlq edən böyük Yaradana müraciətlə yazılmış elmi-fəlsəfi bir əsərdir. Poemada şair sanki Allahla danışır, rəhimlilərin ən rəhimlisindən imdad, kömək istəyir, nə deyirsə, Allah rizası üçün deyir. Poemadakı sözlər elə bil adi sözlər deyil, göylərdən gələn və yenidən səmaya yönələn ali kəlmələr və dualar kimi səslənir. Bir söz ki, Allahdan gəlib, Allaha qayıdır, ondan gözəli ola bilməz...

Poema şair üçün psixoloji dəstək rolunu oynayır, mənəvi iztirablardan qurtulması üçün yardımçıya çevrilir. Yerdə qərar tuta bilməyən, Allaha yaxınlaşmağa can atan şair yer-göy arasında "var-gəl" edir. Xalq şairi Səməd Vurğunun təbirincə desək, "əzəldən yaranmış tamaşa dünya"nın bağçalı-bağlı yerlərinə, qapısı bağlı göylərinə baxıb duyğulanır. Müəllif əsərdə bəzi adamların haram yollarla necə dəbdəbəyə, var-dövlətə çatdığından, elmli, bilikli, fəzilətli, əxlaqlı insanlara qənim kəsildiyindən söhbət açır:

*Qəribəm dünyaya gələndən bəri,*
*Fani bir məkana düşmüşəm, Allah.*
*Sənə çatmaq üçün, səndən ötürü,*
*Şairtək hər şeyə dözmüşəm, Allah.*

*İlahi, usanıb daha bezməyim,*
*İnsandan müqəddəs bir ad ver mənə.*
*Yetməzmi bu sürgün yerdə gəzməyim,*
*Göylərə uçmağa qanad ver mənə.*

Deyirlər, şairlər göy adamlarıdır. Ruhi aləmlə real dünya arasında vasitəçidirlər. Təkcə yerdə təmas qursalar, şairlik də itər, sözə ilahi münasibət də qurtarar. Poemanı oxuyandan mən şair Həsən Xasiyevi sanki yerlə göy arasında bağlantı kimi hiss edirəm. Qeybdən gələn sözləri ağ vərəqlərə köçürüb yerdən göy üzünə çəkilmək istəyir, kosmik əlaqələr axtarışına çıxmaq arzusundadır. Yaşadığı yer üzündə, sözün əsl mənasında, göydəndüşmə olduğundan qərarsızdır, darıxır, xəyalı daim göylərdə dolaşır. Poeziyanı təkcə təbiətlə, torpaq, od, su, hava, bir sözlə, yaradılışın əsas ünsürləri ilə bağlamaq həqiqəti tam dolğunluğu ilə əks etdirmir. Dünya təklikdə dəyərsizdir, göylə müştərək çox şey deməkdir. Qısası, əsl poeziya yerin göylə, Ulu Yaradanla qırılmaz vəhdətidir. Həqiqət şairi Hüseyn Cavid haqlı olaraq poetik kimliyini belə bəyan etmişdi:

*Mən fəqət hüsni-Xuda şairiyəm,*
*Yerə enməm də, səma şairiyəm.*

Xalq şairi Zəlimxan Yaqub yazırdı ki, şeir yazanlar nə qədər desəniz olub və var. Amma Allahla bağlı olan, yerlə göyü bir-birinə qatan şairlər azdır.

Həsən Xasiyevin bu poeması dünyanın mahiyyəti, həyatın mənası, bəşər övladı, zaman və məkan, varlıq və yoxluq anlayışları barədə bədii-fəlsəfi düşüncələr toplusudur. Bu fikirlər oxucularda həmin anlayışlar haqqında geniş təsəvvür yaradır, onları düşünməyə vadar edir. İnandırmaq bacarığı isə insanda ən kamil, ən önəmli keyfiyyətdir. Həsəni tanıyanlar onun özünə və dediyi sözünə inanır, hörmət edirlər. Çünki sözü ürəkdən, doğmalıqla, halallıqla deyir. Söhbətində səmimi və odlu qəlb çırpıntıları var. Bu da onun daxili dünyasının zənginliyindən xəbər verir. Axı onun özü həqiqəti, haqq-ədaləti, insafı məhv olmağa qoymayan, insana dayaq, kömək olmaqdan fəxarət duyan xeyirxah ziyalı, fəal vətəndaş, etibarlı dostdur.

Bir vətənpərvər şair kimi haqq sözünü hər yerdə, hər zaman deməkdən qorxmur, çəkinmir. Poemada müəllif ağrı-acılara görə yer planetindən hesabat istəyir, onu dinləməyə, suallara cavab almağa, bəşəriyyətin xilasına, nicatına çalışır. Məhz cəmiyyət də ilahi qüvvə ilə bağlı olan belə fərdlərin varlığı sahəsində inkişaf edir. Şair yazır ki, göylərdə sevinc, bizim dünyamız olan Yerdə isə sevinc, həm də kədər mövcuddur. İnsan bu iki zərurət arasında yaşayır.

Fələk insanın taleyini kart kimi qarışdırır. Bəxt ulduzunu tanıyan, özünü dərk edən kəs Tanrı köməyilə, yüksəkliklərə, göylərə, kainatın ənginliklərinə ucala bilər. Ulu Tanrıya sonsuz məhəbbət bəsləyən şair ona qovuşmaq, çatmaq arzusu, ölməzlik və əbədilik istəyi ilə yaşayıb-yaradır.



*Ən təmiz məxluqu göylərdə gördüm,*
*Səmada xəlq olan pakdı, uludu.*
*Yabançı nə varsa, mən yerdə gördüm,*
*Göy üzü müqəddəs Allah yoludu.*

*Dolansın boynuma Günəşin qolu,*
*Üstümə tökülsün ulduz yağışı,*
*Eşitmək istərəm Allah "sağ ol"u,*
*Bir də ki, ilahi Tanrı alqışı.*

Dini təsəvvürlərə görə, göy üzü yeddi qatdan ibarətdir. Yeddincisi Allah dərgahı olan Ərşi-Əladır. Merac – peyğəmbərin Allah hüzuruna yetişməsidir. Və o, Allahı öz cismani gözləri ilə deyil, idrak gözləri ilə görüb, bir göz qırpımında yenidən yerə dönür.

Tanrı dərgahında peyğəmbərlərdən sonra şairlər gəlir. Şairin son arzusu da belə bir görüşdür, çünki ruhlar aləminə, Tanrı səltənətinə yetişmək insan səadətinin ən uca, ən ülvi zirvəsi, əbədi xoşbəxtliyidir. Ruh ilahi mahiyyət daşıdığından söz də onun ifadəsi kimi şairə Allah tərəfindən verilmiş vergidir. Şair ibadət, müqəddəs poeziya yolu ilə Allaha çatmaq istəyir. Son dərəcə keşməkeşli, amma çox şərəfli, çox mübarək bu yolun çətinliklərinə dözənlər, nəhayət, çəkdiyi əziyyətlər müqabilində inanılmaz rahatlığa, dincliyə düşəcək, əbədi Tanrı himayəsində olacaq və zəkasına işıq düşmüş nurlu varlıqlara çevriləcəklər.

*Masmavi səmaya çıxdım yuxuda,*
*Önümdə rəngbərəng o göy qurşağı.*
*Bəxtəvər söyləyir mənə çoxu da,*
*Bir daha enmərəm burdan aşağı.*

Röyada aydın və masmavi bir səma görmək sonsuz sevinc və səadətə yozulur, göyə çıxmaq yüksək bir mövqeyə çatacağını bildirir (Göydən yerə düşmək, əksinə, həyatda bir sarsıntıyla üzləşmək anlamına gəlir). Həm də yuxuda göy qurşağı görmək işlərində müvəffəq olmağına, arzu və əməllərin həyata keçəcəyinə işarə kimi qiymətləndirilir. "Yer-göy" poeması aşağıdakı misralarla başlayıb bitdiyindən, mən də sözümü şairin həmin misralarıyla tamamlamaq istərdim:

*Yerdə düzəlməyib hələ bir işim,*
*Bir çarə qılmırsan axı niyə sən?*
*Ey Yaradan, budur səndən xahişim,*
*Apar məni öz yanına – göyə sən!*

*Niyyətim saf, təmiz, həm də ki əla,*
*Kömək ol, ey böyük Allah-Təala!*

Amin deyirik və Uca Tanrıdan şair arzusunun müstəcab olmasını diləyirik.

**Hacı Vadir Mustafayev**
**ilahiyyatçı**

# 2000-ci görüş

## 32 ildir "Mədəniyyət" adlı yolda...










*əvvəli səh. 1-də*

Hər görüş həm də yenilik, dəyişiklik deməkdir. Qəzetimizdə 32 ildir ölkənin mədəni gündəmi, daha doğrusu, salnaməsi yazılır. Təəssüf ki, "Mədəniyyət" nəşr həyatının ilk illərində Vətənin çətin, sıxıntılı günlərini, ümidsiz dövrünü də işıqlandırmağa məcbur olmuşdu. Gənc respublikanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı müharibə mədəniyyət sahəsinə də dağıdıcı təsirini göstərmişdi.

Ancaq ulularımız demişkən, hər gecənin bir gündüzü var. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ümidsizlik yerini inama verdi. Dağıdıcı düşüncə qurucu qüvvə qarşısında yox oldu. Daxili sabitliyə, əmin-amanlığa daha çox möhtac olan mədəniyyət sahəsi də özünə gəlməyə başladı. "Mədəniyyət" qəzetinin də mövzu-mündəricəsi tədricən dəyişilməyə sarı yol aldı. Bütün çətinliklərə rəğmən gələcəyə inam, Heydər Əliyevin mədəniyyətə məxsusi və həssas münasibəti bu sahənin inkişaf üfüqlərini də genişləndirdi. Qəzetin səhifələri də mədəniyyət və incəsənətin müxtəlif sahələrindəki yeniləşmə, mədəni quruculuq mövzulu yazılarla zənginləşməyə başladı...

...Şanlı Zəfərlə bitən 2020-ci ilin 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz bərpa olundu. Həm milli tarixi yaddaşımız Qələbə ruhu ilə süsləndi, həm də ölkəmizin mədəniyyət coğrafiyası bütünləşdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyində bu gün dövlətimizin daha parlaq gələcəyi adına əcdadlarımızın da ruhunun rahatlıq tapdığı, 50 milyondan artıq soydaşımızın qürur duyduğu tarixi addımlar atılır. Azərbaycan tək öz regionunda güc mərkəzi deyil, həm də beynəlxalq aləmdə sayılıb-seçilən, etibarlı tərəfdaş imici qazanmış dövlətə çevrilib.

Bütün bu tarixi-siyasi proseslər fonunda mədəniyyət sahəsinin də dövrün çağırışlarına, sürətli və sistemli inkişafımıza adekvat şəkildə öz missiyasını yerinə yetirməsi üçün dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı altında, yeni təfəkkür işığında addımlar atılır. Bu gün qəzetimiz həm də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışa şahidlik edir, onun salnaməsini yazır, otuzillik ayrılıqdan sonra mədəniyyətimizin yenidən əzəli yurd yerlərimizə qovuşmasını tərənnüm edir...

32 illik zaman kəsiyində qəzetin yazarından redaktoruna, dizaynerindən korrektoruna – ümumilikdə redaksiya kollektivinin tərkibi də dəyişib, çap maşınlarından keçib bəyaz kağız rulonlarının qəzet nüsxələrinə çevrildiyi məkanlar da...

Bu yerdə kollektivimizin üzvləri olmasalar da, bu qəzetin ərsəyə gəlməsində "son söz sahibi" olan çapçıların – "Azərbaycan" nəşriyyatının zəhmətkeş əməkdaşlarının əməyini də ayrıca qeyd etmək istərdik. Biz gecəyə doğru redaksiyanın işıqlarını söndürüb evə gedəndə onların iş vaxtı başlayır. Sabahın gün işığından öncə qəzetlər işıq üzü görsün deyə...

2000-ci saya çatınca redaksiyamızda neçə-neçə usta qələm sahibi çalışıb, əməkdaşlıq edib. Neçə-neçə gənc jurnalist burada təcrübə qazanıb, sonradan tanınmış imza sahibi olub. Bəli, bu illər ərzində çox şey dəyişib. Dəyişməyənsə yalnız dövlətimiz tərəfindən mədəniyyətə diqqət və qayğı, milli mədəni və mənəvi dəyərlərimizə sədaqət olub.

Mədəniyyət sonu görünməyən işıqlı bir yoldur. Onu yaradıb-yaşadan xalq var olduqca o işıq da yanacaq. "Mədəniyyət" qəzeti də həmin istiqamətə doğru – işığa sarı yol gedir. Həm də bu yolun hər qarışında iz qoya-qoya...

**"Mədəniyyət"**

# Xanızadənin "şinel"indən çıxanların "Şinel"i

## Qoqolun povesti köhnə-yeni mimçilərin yozumunda...



Oxuyanlar bilir ki, "Şinel" povesti rus yazıçısı Nikolay Qoqolun maraqlı və məzmunlu (mənə görə isə, bütün zamanlarda müasir) əsərlərindəndir. Hər cəmiyyətdə Qoqolun qəhrəmanı kimi olanlar və onların bir-birinə yaratdığı əngəllər var. Sözsüz ki, yaşamaq və arada yaşadığını özün qarışıq hamıya göstərmək də bunun içində. Qısacası, hamı yırtıq şinelini təzələmək üçün çalışıb-vuruşur. Özlüyündə sevincləri, qələbələri, uğurları da olur. Amma heç bir əhəmiyyəti yoxdur. Çünki bütün hesablarda öndə zaman və onun diktəsi ilə dəyişən cəmiyyət qanunlarıdır...

Ötənlərdə Dövlət Pantomima Teatrında bu əsərin motivləri əsasında hazırlanmış "Şinel"ə baxdım. Bundan əvvəl isə onu Teatr Xadimləri İttifaqının səhnəsində, festival tamaşası kimi izləmişdim.

Bu tamaşa mənim üçün həm də Pantomima Teatrının yaradıcısı Xalq artisti Bəxtiyar Xanızadənin sənət "şinel"indən çıxıb sonradan özlərinə fərqli məkanlarda şinel tədarük edənlərin yuvaya qayıdış elanı kimi də maraqlı idi. Ceyhun, Elnur və Əli. Ola bilər, başqa qayıdanlar da var, amma mənim diqqətim bu üçlükdə idi...

Bu köhnə mimçilərin qırışı açılmayan "Şinel"inin rejissoru Ceyhun Dadaşovdur. Rəqslərin quruluşunu isə Ceyhun Dadaşovla Elnur İsmayılov verib.

Oyunçulara gəlincə, "Şinel" köhnələrlə təzələrin yaxşı tandemidir: Elnur İsmayılov, Əli Əlizadə, Hilal Dəmirov, Nurlan Süleymanov, Zəhra Hüseynova, Nəzrin Zeynalova, Oqtay Kazımov və Aydan Həsənova.

Onu da deyim ki, yaşı 30-u haqlayan teatr hazırda 11-ci truppası ilə fəaliyyətini davam etdirir. Gənclər gəlir, işləyirlər. Kütləvi auditoriyası olmayan bu sənətdə duruş gətirənlər qalırlar. Buna Xanızadənin fəlsəfə və sənət məziyyətlərinə dözənlər də demək olar. Bu gün üçün demirəm, amma sənət üçün, həyat üçün, gələcək üçün mütləq udurlar. Bunu 3-5 ilə hamımız görəcəyik. Niyə? Çünki mövcud incəsənət təhsili sistemində pantomima teatrı üçün kadr hazırlanmır və aktyor diplomlu gənclər sadəcə, Xanızadənin məktəbindən keçib pantomima aktyoru olurlar. O da uzağı 1-2 nəfər. Odur ki, qədrini bilək...

İndi keçək zaman-zaman Xanızadənin sənət şinelində daldalananların özlərinə biçib-tikdikləri "Şinel"ə.

Rejissor Ceyhun Dadaşov əsərə fərqli prizmadan baxıb. Süjet xəttini bir geyim üzərində qurur. Biz material olaraq şineli görsək də, mahiyyət olaraq həyat uğrunda yaşamağın kortəbii dərzilərinə çevrilirik. Gah kil qayçı ilə kəsir, gah şiş iynə ilə köklər atır, gah da əynimizə keçə bilməyən geyimimizi təzədən söküb yerə qoyuruq. Səbri çatanlar üsküyü barmağına keçirib ehmalca parçaları üst-üstə qoyub təzədən tikişlər atır. Hövsələsini basıb kəsənlər də kor iynə barmağını dəlik-deşik etsə belə, iki yaxasını bir araya gətirə bilmir ki, bilmir. Əlqərəz, pal-paltar bəhanəsi ilə hərə öz hayındadır.

Şinel bəhanəsi ilə biz nəyi görürük? Uzağa getmədən özümüzdə inkar edib, başqasında barmaqla göstərdiyimiz xüsusları: riyakarlığı, qorxaqlığı, möhtəkirliyi, tamahkarlığı, acgözlüyü, kəmfürsətliyi ... və fağırlığı. Bəli-bəli, fağırlığı və bunun gətirdiyi mütiliyin dibini.



Səbəbi də aydın görünür: heç kim öz yorğanına görə ayağını uzatmır. Hamının burnu hamının həyatında, hamının əli hamının cibində, birinin gözü o birinin qabında. Beləcə, hamının fikri başqasının ətəyindədir. Elə bilir onun geyimi buna daha yaxşı yaraşar, daha çox lazımdı və daha çox onun haqqıdır. Başlayır vurçatlasın. Əynimiz lüt qalır, əlimiz də boş...

Rejissorun günahkarı, səbəbkarı, dostu, düşməni, sevgini, nifrəti şinelin üzərində qurması yaxşı tapıntıdır. Axı, təzə görkəmliləri ev də sevir, el də.

Budur, parıltılı şinel geyinən köhnə adama hamı heyran qalır. O, tez köhnələri önünə qatıb kütləni idarə edir. Yorulanda onların çiyinlərində gəzir, darıxanda onları bir-birinə döydürüb qəşş edir, acıqlananda da əyin-başlarındakı cır-cındırı da əllərindən alır, nimdaşlarına belə həsrət qoyur. Qısacası, təzə şinelli köhnələrə divan tutur. Ta başqa bir təzə şinelli gəlincə. Öyrəncəlidirlər axı. Təzənin qırmızı rəngi, qızılı düymələri, şax yaxalığı daha çox xoşlarına gəlir. Heç ağzını açmağa imkan vermirlər. Qul-qarabaş kimi dizinin dibində bənd olub, mat-mat ağzına baxırlar.

Beləcə, sarı, yaşıl, göy şinellər bizi elədən belə, belədən elə adlayırlar. Hamı ona çatmaq arzusu ilə yaşayır və çox vaxt ona çatmadan ölür.

Sonda rejissor hamımızı şinelin cibinə yuvarladır. Xilas olmaq istəyən bir-iki ağıllını da kütlə itələyə-itələyə cibə dürtüb üstündən də özü keçir. Di, əcəl şineliniz mübarək!

Rejissor cəmiyyətdə gördüyü eybəcərlikləri Qoqolun "Şinel"i bəhanəsilə tamaşaçılara çatdırmağa çalışır.

Tamaşadakı aktyor oyunu üzərində ayrıca dayanmayacam. Çünki onlar kollektiv olaraq qəhrəmanların iztirablarını da, sevinc və mənəviyyatsızlıq ifadələrini də sərrast və qüsursuz çatdırırdılar. Tamaşanın musiqi tərtibatı, ideyanın alt qatındakı ağır məna yükünü yüngülləşdirən ritmləri bizi bir an belə olsun prosesdən ayırmadı.

Rəng harmoniyası (seçilən əsas rəng dini baxımdan diskriminasiya yaradacaq şüuraltı mesaj versə belə) hərəkət və mahiyyəti çatdıra bildi.

Nəticədə bizi udan, didib-parçalayan, yaşamaq cəhənnəm, heç adam kimi ölməyə belə qoymayan ideyalarımızın, çürük arzularımızın qalaqlanıb bizi gözlədiyi dibsiz, nəhayətsiz cibdə xərclənib gedirik. Özü də "pul əl çirkidir" dediyimiz saxta həqiqətimizlə. Deməli, bu günümüzün cümlə xəyanətlərə baiskarı... şineldir.

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 24–28 aprel

### Azərbaycan

**24 aprel 1866** – Yazıçı-publisist, maarif xadimi Sultanməcid Hacı Murtuzəli oğlu Qənizadə (1866-1942) Şamaxıda doğulub. Teatr xadimləri haqqında xatirələr yazıb, rus yazıçılarından tərcümələr edib.

**24 aprel 1902** – SSRİ Xalq artisti İsmayıl Osman oğlu Osmanlı (1902 – 22.6.1978) Şəkidə anadan olub. Akademik Dram Teatrında çalışıb. "O olmasın, bu olsun", "Mən ki gözəl deyildim", "Nəsimi", "Yeddi oğul istərəm" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**24 aprel 1941** – Əməkdar artist Rafiq Mirzəcan oğlu Hüseynov (1941-2018) Hacıqabul rayonunda doğulub. Gənc Tamaşaçılar Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**24 aprel 2011** – Xalq şairi, ədəbiyyatşünas Balaş Azəroğlu (Balaş Allahbaxış oğlu Abizadə; 11.11.1921 – 2011) vəfat edib. 1940-cı illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatında iştirak edib, ilk şeir kitabları Ərdəbildə və Təbrizdə nəşr olunub.

**25 aprel 1905** – Ədəbiyyatşünas, şair, tərcüməçi Mikayıl Həsən oğlu Rəfili (1905 – 25.4.1958) Goranboy rayonunun Borsunlu kəndində doğulub. Rus ədəbiyyatından tərcümələr edib. "Səbuhi" filminin (1941) ssenari müəllifidir.

**25 aprel 1911** – Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettasının ilk tamaşası (quruluşçu rejissor Hüseynqulu Sarabski) olub.

**25 aprel 1911** – Əməkdar artist, müğənni Elmira Ağa qızı Axundova (1911 – 26.11.1998) Bakıda anadan olub. Opera və Balet, Musiqili Komediya teatrlarında çalışıb.

**25 aprel 1914** – Xalq artisti Məhəmməd İsmayıl oğlu Burcəliyev (1914 – 25.11.1994) Şəkidə doğulub. 1935-ci ildən Gəncə Dövlət Dram Teatrının aktyoru olub, teatrda direktor işləyib, tamaşalara quruluş verib. "Dəli Kür", "Gözlə məni", "Qəm pəncərəsi" və s. filmlərdə çəkilib.

**25 aprel 1933** – Azərbaycan peşəkar milli teatrının 60 illiyi təntənəli şəkildə qeyd edilib.

**25 aprel 1942** – Əməkdar mədəniyyət işçisi Şirin Həsən oğlu Rzayev (1942 – 14.4.2020) Gəncədə doğulub. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının direktoru olub.

**26 aprel 1908** – Görkəmli yazıçı, ədəbiyyatşünas, Əməkdar elm xadimi Mir Cəlal Əli oğlu Paşayev (1908 – 28.9.1978) Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olub. "Bir gəncin manifesti", "Dirilən adam", "Yaşıdlarım" romanlarının, povest və hekayələrin, "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasının müəllifidir. BDU-nun professoru olub.

**26 aprel 1947** – Kinorejissor, Əməkdar incəsənət xadimi Gülbəniz Yusif qızı Əzimzadə (1947 – 7.12.2006) Bakıda anadan olub. Filmləri: "Qaladan tapılan mücrü", "Avqust gələndə", "Ötən ilin son gecəsi", "Qətl günü" və s.

**26 aprel 1972** – Bakıda Azərbaycan rəssamlarının VII qurultayı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev qurultayda çıxış edib.

**26 aprel 1972** – Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (2014-cü ildən Azərbaycan Xalça Muzeyi) ilk ekspozisiyası İçərişəhərdəki Cümə məscidinin binasında açılıb.

**26 aprel 2021** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (8.10.1951 – 2021) vəfat edib.

**27 aprel 1940** – Folklorşünas alim, professor Bəhlul Ağabala oğlu Abdulla (1940-2011) Lerik rayonunun Lələhiran kəndində anadan olub.

**27 aprel 1951** – Əməkdar artist, tanınmış kamança ifaçısı Ədalət Səfərəli oğlu Vəzirov (1951 – 5.10.2002) anadan olub. Moskvada Beynəlxalq musiqi müsabiqəsinin (1974) qalibi olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) müəllim işləyib.

**27 aprel 2020** – Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin banisi, tarix elmləri doktoru, Əməkdar elm xadimi, professor Abuzər Alı oğlu Xələfov (25.12.1931 – 2020) vəfat edib. 50 ildən çox BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri işləyib.

**28 aprel 1914** – Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 1914 – 6.11.2009) Bakının Mərdəkan kəndində doğulub. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**28 aprel 1916** – Əməkdar incəsənət xadimi, teatr rəssamı Əsgər Məmmədismayıl oğlu Abbasov (1916 – 9.2.1970) anadan olub. Musiqili Komediya Teatrının baş rəssamı işləyib.

**28 aprel 1916** – Əməkdar incəsənət xadimi, bəstəkar Ədilə Hacağa qızı Hüseynzadə (1916-2005) anadan olub. Simfonik əsərlərin, romansların, "Duyğular" vokal silsiləsinin müəllifidir.

**28 aprel 1917** – Xalq artisti Məhluqə Sadıqova (1917 – 15.8.2003) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, uzun illər radioda "Bulaq" verilişinin əvəzsiz aparıcısı olub. "Yenilməz batalyon", "Yeddi oğul istərəm", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**28 aprel 1920** – Məşhur tarzən, Xalq artisti Hacı Məmməd oğlu Məmmədov (1920 – 2.8.1981) Şamaxıda doğulub. Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Eyni zamanda tanınmış həkim-cərrah olub.

**28 aprel 1920** – Bəstəkar, dirijor və pedaqoq Məmməd Qəzənfər oğlu Məmmədov (1920 – 28.1.1987) anadan olub.

**28 aprel 1921** – Əməkdar elm xadimi, tanınmış dilçi alim, professor Məmməd Tağı oğlu Tağıyev (1921 – 28.9.1994) Samux rayonunda doğulub. "Azərbaycanca-rusca lüğət"in (4 cild) redaktoru, "Rusca-azərbaycanca frazeoloji lüğət"in tərtibçisidir.

**28 aprel 1925** – Əməkdar incəsənət xadimi, yazıçı Məmmədhüseyn Rüstəm oğlu Əliyev (1925 - 6.7.1994) Lerik rayonun Kürdəsər kəndində doğulub. "Dağlar oğlu", "Torpağın ətri" və s. romanların müəllifidir.

**28 aprel 1956** – Tanınmış tarzən Gülağa Tapdıq oğlu Zeynalov (1956 - 2.1.2015) Şuşa şəhərində doğulub. Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

### Dünya

**24 aprel 1845** – İsveçrə yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1919) Karl Fridrix Şpitteler (Carl Friedrich Georg Spitteler; 1845-1924) anadan olub. Əsərləri: "Olimpiya baharı" (epik poema), "Prometey və Epimetey".

**25 aprel 1928** – SSRİ Xalq artisti Yuri Vasilyeviç Yakovlev (1928 – 30.11.2013) anadan olub. Filmləri: "İdiot", "Qusar balladası", "Xoş təsadüf və ya həmişə təmizlikdə", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**26 aprel** Beynəlxalq Əqli Mülkiyyət Günüdür (World Intellectual Property Day). 2000-ci ildə Dünya Əqli Mülkiyyət Təşkilatının təşəbbüsü ilə təsis edilib.

**26 aprel 1798** – Fransız rəssamı Ejen Delakrua (Ferdinand Victor Eugene Delacroix; 1798-1863) anadan olub. "Barrikadada azadlıq", "Xiosda qətliam" və s. tarixi tabloların müəllifidir.

**26 aprel 1886** – Tatar ədəbiyyatının klassiki, şair və yazıçı Qabdulla (Abdulla) Tukay (1886-1913) anadan olub.

**27 aprel 1878** – Tacik milli ədəbiyyatının banisi, yazıçı və şair Sədrəddin Ayni (Səid-Muradzadə; 1878-1954) anadan olub. Özbək dilində də yazıb. Əsərləri: "Odina", "Dohunda", "Qullar".

**27 aprel 2007** – Məşhur violonçel ifaçısı, dirijor, SSRİ Xalq artisti Mstislav Leopoldoviç Rostropoviç (27.3.1927 – 2007) vəfat edib. Bakıda doğulub. Azərbaycanın ən ali təltifi olan "Heydər Əliyev" ordeninə (2007) layiq görülüb.

# “Arşın mal alan” operettası ilk dəfə Torontoda təqdim olunub

əvvəli səh. 1-də

“Təbriz” ansamblının solistlərinin, rəqqas və musiqiçilərinin nümayiş etdirdikləri peşəkar performans tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Rolları Arəş Yəhyapur (Əsgər), Kristina Rəhimova (Gülçöhrə), Rövşən Tağıyev (Süleyman), Nəsrin Əttari (Asya), Əsgər Yəhyapur (Soltan bəy), Nəcibə Fərşi (Cahan xala), Röya Şəmsazər (Telli), Səid Şirazi (Vəli) və ansamblın digər üzvləri ifa ediblər.

Üzeyir Hacıbəylinin ölməz əsərinin Kanadada səhnələşdirilməsi ideyasının müəllifləri “Təbriz” ansamblının prodakşn meneceri Şervin Şahadpur və musiqi rəhbəri Polad Kaşefdir. Tamaşadan sonra onlar bildiriblər ki, Üzeyir dühasının Azərbaycan musiqisinə bəxş etdiyi operettanın Toronto səhnəsində nümayişi hər bir soydaşımıza böyük qürur hissi yaşadıb. Nəzərə çatdırılıb ki, kollektiv “Arşın mal alan” operettasını Kanadanın digər böyük şəhərlərində nümayiş etdirməyə hazırlaşır.



Xatırladaq ki, 20 ilə yaxındır Toronto şəhərində fəaliyyət göstərən “Təbriz” ansamblı Kanadada Azərbaycanın mədəniyyətini və incəsənətini uğurla təbliğ edir.

# Türk dünyası rəssamları Daşkənddə festivalda bir araya gəliblər

## Sakit Məmmədov Özbəkistan Rəssamlıq Akademiyasının qızıl medalı ilə təltif edilib

17-21 aprel tarixlərində Özbəkistanda Beynəlxalq Təsviri və Tətbiqi Sənət Festivalı keçirilib. Özbəkistan Mədəniyyət və Turizm Nazirliyi, Kəmaləddin Behzad adına Özbəkistan Rəssamlıq Akademiyası və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə təşkil etdiyi festivalda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan, eləcə də Macarıstan, Cənubi Koreya, Rusiya, Belarus və digər ölkələrdən rəssamlar iştirak ediblər.



Azərbaycandan festivala Xalq rəssamları Sakit Məmmədov, Arif Əziz və tanınmış fırça ustası Fikrət İbrahimli qatılıb. Festivalın tədbirləri paytaxt Daşkəndlə yanaşı digər şəhərləri də əhatə edib.

Daşkənddə keçirilən açılış mərasimində TÜRKSOY-un baş katibi Sultan Raev Türk dünyasından, eləcə də müxtəlif ölkələrdən rəssamları bir araya gətirən festivalın əhəmiyyətini vurğulayıb. O, 21 aprelin Özbəkistanda “Rəssamlar Günü” kimi qeyd olunduğunu bildirərək bu münasibətlə də təbriklərini çatdırıb.

Özbəkistan Rəssamlıq Akademiyasının rektoru Akmal Nur deyib ki, ənənəvi festival bu il xüsusi önəm kəsb edir. Çünki ilk dəfə olaraq festivala TÜRKSOY tərəfindən də dəstək verilib. Təşkilatın üzvü olan ölkələrin rəssamları festivalda aktiv iştirak edirlər.

Festival çərçivəsində Daşkənddə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan və Macarıstandan olan rəssamların 100-ə yaxın əsərinin yer aldığı sərgi açılıb.

Həmçinin Türk dünyası rəssamlarının toplantısı keçirilib. Toplantıda Türk Dünyası Rəssamlıq Akademiyasının təsis olunması niyyəti elan edilib.

Tədbirdə rəssamlara TÜRKSOY-un sertifikatları və Özbəkistan Rəssamlıq Akademiyasının mükafatları təqdim olunub.

Özbəkistan Rəssamlıq Akademiyasının qızıl medalı ilə təltif edilənlər arasında Azərbaycanın Xalq rəssamı Sakit Məmmədov da var.

Rəssam festivala dəvətə və yaradıcılığına göstərilən diqqətə görə TÜRKSOY-un baş katibinə və Özbəkistan Rəssamlıq Akademiyasının prezidentinə təşəkkürünü bildirib. Özbəkistanın “Xalq sözü” qəzetində Sakit Məmmədovla geniş müsahibə də dərc olunub.

# Serbiyada Azərbaycan mədəniyyəti günləri keçirilib

Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə əlaqədar aprelin 18-20-də Serbiyanın paytaxtı Belqradda Azərbaycan mədəniyyəti günləri keçirilib.

Azərbaycanın Serbiyadakı Səfirliyinin təşkilatçılığı, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un dəstəyi ilə “Azərbaycan – Odlar Yurdu” şüarı altında keçirilən tədbirlərdə Belqradda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Serbiya rəsmiləri, mədəniyyət xadimləri, diaspor və yerli ictimaiyyətin təmsilçiləri, Serbiya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri, bu ölkədə yaşayan, təhsil alan və çalışan soydaşlarımız iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev iki ölkə arasında yüksək səviyyəli və dinamik münasibətlərin mövcud olduğunu deyib, mədəni sahədə əlaqələrin inkişafının əhəmiyyətini diqqətə çatdırıb.

Mədəniyyət günləri çərçivəsində milli musiqilərimiz, muğam və rəqslərdən ibarət konsert proqramı təşkil olunub, milli geyimlər, xalçalar, qurama və rəsm əsərlərinin sərgisi nümayiş etdirilib, ölkəmizin tarixi, mədəni irsi barədə ziyarətçilərə məlumat verilib.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası və Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solistləri – Əməkdar artist Viktoriya Şahmuradova və 44 günlük Vətən müharibəsi qazisi Firdovsi Eyvazov tərəfindən milli rəqslərimiz yüksək peşəkarlıqla nümayiş etdirilib. “Sarı gəlin” Azərbaycan xalq mahnısının rəqslə müşayiəti, həmçinin “Şuşanın dağları” və “Can Qarabağ” mahnıları heyranlıqla izlənilib.



Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru, eyni zamanda Serbiya Opera və Balet Teatrının prima sopranosu Yasmina Trumbetaş Tofiq Quliyevin “Qızıl üzük” mahnısını oxuyub.

Şuşanın füsunkar təbiəti, tarixi və memarlıq abidələrini əks etdirən fotosərgi, “Azərxalça”nın təqdim etdiyi xalçalar, Azərbaycan Milli Geyimlər Mərkəzinin rəhbəri Gülnarə Xəlilovanın “Qarabağ” milli geyim kolleksiyası, qurama üzrə sənətkar Leyla Xasiyevanın əl işləri, Belqradda yaşayan azərbaycanlı rəssam Yevgeniya Türkoğlunun Bakı və Abşeron yarımadasının əks olunduğu əsərləri böyük maraqla qarşılanıb.

Mədəniyyət günləri Serbiya mediasında işıqlandırılıb.

# Çində “Azərbaycan mədəniyyətinə pəncərə”

## İki ildir fəaliyyət göstərən pavilyona böyük maraq var

əvvəli səh. 1-də



Qeyd edilib ki, parka gələnlər 2021-ci ildən fəaliyyət göstərən bu pavilyona böyük maraq göstərirlər.

Cen Çuansin isə 2021-ci ildə Azərbaycanın Tayhu Dünya Mədəniyyət Forumunun “fəxri qonaq ölkəsi” olduğunu xatırladaraq Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətinin mədəni əlaqələrin inkişafı baxımından əhəmiyyətini qeyd edib. O, gələcək forumlarda da Azərbaycanla əməkdaşlıq etmək istədiklərini bildirib.



Qeyd edək ki, Benbu şəhərindəki “Qədim məskənlər” parkında ilk fəaliyyətə başlayan xarici pavilyon məhz Azərbaycan pavilyonu olub. Burada Azərbaycanın xalçaçılıq məktəblərini təmsil edən xalça və kilimlər, misgərlik, dekorativ yaradıcılıq və şəbəkə sənəti nümunələri, milli geyimlər, musiqi alətləri, habelə Heydər Əliyev Fondunun Azərbaycanın mədəniyyəti, tarixi ilə bağlı nəşrləri, milli suvenirlər nümayiş olunur. Bundan başqa, Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstü, “Xarıbülbül”, “Qız qalası” və “Ceyranlar” silsiləsindən heykəltəraşlıq əsərləri, Qobustan qayaüstü rəsmlərinin imitasiyası da eksponatlar sırasında yer alıb.



Pavilyonda yerli uşaqlara əl qabiliyyətlərini inkişaf etdirmək üçün də şərait yaradılıb.

# Ölkəmizin işgüzar turizm imkanları “M&I Forum”da təbliğ edilib

Azərbaycanın işgüzar turizm imkanları 16-19 aprel tarixlərində İstanbulda keçirilən “M&I Forum” beynəlxalq tədbirində tanıdılıb.

Tədbirdə Azərbaycan Turizm Bürosu (ATB) və Bakı Konqres Mərkəzinin təmsilçiliyi ilə ölkəmizin işgüzar və biznes turizmi potensialını tanıtmaq üçün xarici tərəfdaşlarla B2B formatlı 50-dən çox görüş keçirilib, Azərbaycanın müasir işgüzar turizm infrastrukturu, irimiqyaslı biznes tədbirlərinə ev sahibliyi etməsi haqqında məlumat verilib.

Qeyd edək ki, ATB-nin ölkəmizdə işgüzar turizmi inkişaf etdirmək istiqamətində digər qurumlarla əməkdaşlığının nəticəsi olaraq Azərbaycan 2023-cü ildə 74-cü Beynəlxalq Astronavtika Konqresi, Avropa Gənclər Parlamentinin 99-cu Sessiyası və Avropa Kranio Maksillo Üz Cərrahiyyəsi Assosiasiyasının Regional Konqresi, 2024-cü ildə isə Universitet Alimlərinin Liderlik Simpoziumu kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməyə hazırlaşır.

“M&I Forum”u dünya üzrə işgüzar turizm sahəsində beynəlxalq platforma rolunu oynayır.




## Olaylar, faktlar (24–27 aprel)

### 195 il əvvəl...

**26 aprel 1828-ci ildə** İranla müharibədən qalib çıxaraq Azərbaycanın şimalını özünə birləşdirən Rusiya Qafqazdakı ikinci rəqibinə – Osmanlı dövlətinə savaş elan edib. Müharibə bir il sonra (Ədirnə sülhü, 1829) Rusiyanın nisbi üstünlüyü ilə başa çatdı. Müharibənin nəticəsi kimi Şərqi Anadoludakı ermənilərin bir hissəsi Cənubi Qafqaza – İrəvan xanlığına köçürüldü.

### 146 il əvvəl...

**24 aprel 1877-ci ildə** Rusiya Qafqazda və Balkanlarda mövqelərini möhkəmlətmək məqsədilə Osmanlı ilə növbəti müharibəyə başlayıb. Bir il sürən müharibə Osmanlının məğlubiyyəti ilə nəticələndi. San-Stefano sülh müqaviləsinə (1878) əsasən, Rusiya Türkiyənin ermənilər yaşayan bir neçə bölgəsini (Qars, Ərdahan), habelə Osmanlının nəzarətində olan Bessarabiyanın (indiki Moldova ərazisi) bir hissəsini özünə birləşdirdi.

### 114 il əvvəl...



**27 aprel 1909-cu ildə** Osmanlı dövlətində növbəti saray çevrilişi baş verib. 1876-cı ildən hakimiyyətdə olan Sultan II Abdülhamit taxtdan salınıb, onun yerinə qardaşı – şahzadə Mehmet Reşat (V Mehmet) taxta çıxarılıb.

### 105 il əvvəl...

**25 aprel 1918-ci ildə** Bakıda bolşevik hökuməti – S.Şaumyanın sədrliyi ilə “Xalq Komissarları Soveti” yaradılıb. Tarixə “26 Bakı komissarı” adı ilə düşən qurum Leninin tapşırığı ilə Azərbaycanı sovetləşdirməli idi. “Bakı Kommunası”nda aparıcı vəzifələri ermənilər tuturdular, hökumətdə yeganə azərbaycanlı Məşədi Əzizbəyov idi.

### 104 il əvvəl...

**25 aprel 1919-cu ildə** Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin Xalq Cümhuriyyətinə qarşı qiyamı başlanıb. Qiyamçılar bölgəni “Muğan Sovet Respublikası” elan ediblər. Qiyam iyul ayında Cümhuriyyət qüvvələri tərəfindən yatırıldı.

### 96 il əvvəl...

**27 aprel 1927-ci ildə** Türkiyədə ilk radio yayımı başlayıb. “Türk Telsiz Telefon” adlı özəl qurum 1938-ci ildə Dövlət Radiosu qurulanadək yayımını davam etdirib.

### 57 il əvvəl...

**26 aprel 1966-cı ildə** Özbəkistanın paytaxtı Daşkənddə güclü zəlzələ olub. 7,5 bal gücündə zəlzələ nəticəsində şəhərdə 30 mindən artıq tikili qismən və tamamilə dağılmışdı. İnsan tələfatı barədə nə o vaxt, nə də sonra konkret rəqəm açıqlanmadı.

### 45 il əvvəl...

**27 aprel 1978-ci ildə** Əfqanıstanda dövlət çevrilişi baş verib. 1973-cü ildə Məhəmməd Zahir şahın taxtdan əl çəkməsindən sonra hakimiyyətə gələn və Əfqanıstan Respublikasını elan edən Məhəmməd Davud Xan sosialist təmayüllü qüvvələr tərəfindən devrilib (və ertəsi gün öldürülüb). Ölkənin adı Əfqanıstan Demokratik Respublikası olaraq dəyişdirilib. Sonrakı ilyarım içində sosialist rejimin başçısı olan Nur Məhəmməd Təraki və onun ardınca Hafizulla Əmin də devrilərək öldürüldü. 1979-cu ilin dekabrında Əfqanıstana sovet qoşunları daxil oldu.

### 37 il əvvəl...



**26 aprel 1986-cı ildə** Ukraynada Çernobıl AES-nin 4-cü blokunda nüvə reaktorunun partlaması nəticəsində tarixin ən dəhşətli texnogen qəzası baş verib. Öldürücü radiasiya buludu Ukrayna, Belarus və Rusiyanın bir sıra bölgələrinə yayıldı. AES-nin 30 kilometr radiusunda əhali köçürüldü, həmin ərazi “ölü zona” elan edildi. Çernobıl qurbanlarının dəqiq uçotu aparılmasa da, ötən müddətdə ölümcül şüalanma nəticəsində on minlərlə insan vəfat edib.

**Hazırladı: V.Orxan**

Mədəniyyət Nazirliyinin kollektivi nazirliyin əməkdaşı

**Günay Sabir qızı Əliyevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

“Mədəniyyət” qəzetinin kollektivi Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Rəşad Əliyevə həyat yoldaşı

**Günay Sabir qızı Əliyevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 1051
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641